# YOLUMUZA İŞIQ SALAN DAHİ LİDER

Azərbaycanı həqiqi müstəqil dövlətə çevirən Heydər Əliyev fəlsəfəsi daim bizim zəfər yolumuza mayak kimi işıq salacaq.

**Bu gün qalib dövlətin vətəndaşıyıqsa, bizləri zəfərə aparan yolun başlanğıcını bilmək, bu yolun fəlsəfəsini yaradan, istiqamətini müəyyənləşdirən Ulu Öndərin həyat və fəaliyyətini öyrənmək hər birimizin mənəvi borcu, vəzifəsidir.**

**Ulu Öndər Heydər Əliyev ölkədə daxili hərc-mərcliyə son qoyaraq bütün vətəndaşların bir amal uğrunda birləşməsini təmin etdi. Parçalanma, məhvolma, vətəndaş müharibəsi, qardaş qırğını ilə üzləşən bir dövləti yenidən topardı.**

SƏHİFƏ 4-də



'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

14 DEKABR ŞƏNBƏ 2024 № 48 (4199) Qiyməti - 40 qəpik

www.kaspi.az




# QARDAŞLARIN YAXIN ŞƏRQDƏ MÜTTƏFİQLİYİ



Suriyada Əsəd rejiminin devrilməsi ilə prosesdən ən çox qazanclı çıxan tərəfin Türkiyə olduğu aydınlaşır. Türkiyə Suriyadakı proseslərdə əsas təsirli tərəf olmaq imtiyazını əldə etdi.

**MÜTTƏFİQLİYİN YENİ MƏRHƏLƏSİNƏ KEÇİD**

Beynəlxalq dinamikanın Yaxın Şərqin nəbzi ilə tutuşdurulması fonunda Prezident İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng etməsi, liderlərin Yaxın Şərqdəki vəziyyəti müzakirə etməsi iki ölkənin strateji müttəfiqliyindəki planların yeni mərhələyə keçidini nümayiş etdirir.

**ERMƏNİSTAN DAHA BİR DOSTUNU İTİRDİ**

Ermənistan Rusiyaya qaçan Başar Əsədin müdafiəçisi idi. İrəvan Əsəd rejiminin yardımı ilə İrandan Livana silah daşınmasında coğrafi lövbər rolunu oynayırdı. İran dəhlizinin Suriya və Livana gedən marşrutları haqqında kəşfiyyat məlumatlarına əsaslanan araşdırmalar diqqəti Ermənistana da cəmləşdirirdi.

SƏHİFƏ 3-də

"ÇOXMİLLƏTLİ AİLƏLƏRƏ KÖMƏK ETMƏK İSTƏYİRDİM"

# SEULUN FƏXRİ VƏTƏNDAŞI OLAN AZƏRBAYCANLI XANIM

Asiya ölkələrinə olan marağı onu Cənubi Koreyaya qədər aparıb. Burada Azərbaycanı tanıtmaq üçün təmənnasız fəaliyyət göstərib. Bir tərəfdən Koreyada yaşayan xaricilərin səsini eşitdirir, digər tərəfdən isə Azərbaycan mədəniyyətini, dilini və dəyərlərini yaşadaraq yeni nəsillərə ötürməyə çalışır. Müsahibimiz Koreyadakı Azərbaycan icmasının fəal üzvü Rahil Əhmədovadır.



SƏHİFƏ 8-9-da

# İxtisası yaratdıq, qaldı kadrı tapmaq



Bugünlərdə Nazirlər Kabineti tərəfindən ali təhsilin müxtəlif səviyyələri üzrə ixtisasların təsnifatları təsdiqlənib. Bakalavriat səviyyəsi üzrə bəzi ixtisasların adları dəyişdirilib, bəzi ixtisaslar isə bu təhsil pilləsi üzrə təsnifata əlavə olunub.

SƏHİFƏ 7-də

# Elektrik benzinə qalib gələ bilmir



Ölkəmizdə hibrid və elektromobillərin sayı artsa da, statistik məlumatlar benzin və dizeldən istifadə həcminin azalmadığını göstərir. Əksinə, son bir ildə bu statistikada ciddi artım müşahidə edilir. Ekspertlər bunun hələ uzun müddət davam edəcəyini proqnozlaşdırırlar.

SƏHİFƏ 13-də

# İstehsalı artsa da, ucuzlaşmır

Yola salmaqda olduğumuz ildə Azərbaycanda qara kürünün istehsalı da, xaricdən idxalı da artıb. Bununla belə, daxili bazarda bu məhsulun qiymətində azalma müşahidə edilmir. Ekspertlər bunu istehsalın az olması və yalnız ixrac üçün nəzərdə tutulması ilə əlaqələndirirlər.

SƏHİFƏ 14-də



İki maddəlik Ermənistan

SƏHİFƏ 6-da



Koreyada gərginlik yaradan faktorlar

SƏHİFƏ 5-də



Sumqayıtlıların həllini gözlədikləri problem

SƏHİFƏ 10-da



Körpə ölümləri niyə artıb?

SƏHİFƏ 11-də



Messi və dostlarından qalan xatirə

SƏHİFƏ 16-da




# Leyla Əliyeva Ruandaya səfər edib

Heydər Əliyev Fondunun "Afrika ölkələrində təhsil və mədəniyyətin inkişafı" layihəsi çərçivəsində Ruandaya səfər edən Fondun vitse-prezidenti Leyla Əliyeva paytaxt Kiqali şəhərinin yaxınlığında yerləşən məktəbdə olub. AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva bu təhsil ocağının rəhbərliyi və şagirdləri ilə görüşüb, məktəbdəki şəraitlə yaxından tanış olub.

Heydər Əliyev Fondunun Ruandada həyata keçirdiyi layihə çərçivəsində 1000-dək şagirdin təhsil aldığı məktəb tədris şəraitinin yaxşılaşdırılması və uşaqların yüksək texnologiyalarla bağlı biliklərə yiyələnmələri məqsədilə kompüterlərlə təchiz olunub. Bununla yanaşı, Fond tədris ocağının internetə çıxışını da təmin edib.

Qeyd edək ki, Heydər Əliyev Fondu bu günədək Afrika qitəsi ölkələrində səhiyyə, sosial, təhsil sahələrində bir sıra layihələr həyata keçirib. Bu sırada Heydər Əliyev Fondunun təşəbbüsü ilə beynəlxalq humanitar fəaliyyət çərçivəsində Afrika İrsi Məktəbinin inkişafı üçün maliyyə yardımı, Cibuti Respublikasına səhiyyə sisteminin inkişafı məqsədilə tibbi avadanlıqların verilməsi layihələrini qeyd etmək olar. Gələcəkdə Afrikanın digər ölkələrində də Heydər Əliyev Fondu tərəfindən təhsil və mədəniyyət sahələrində layihələrin həyata keçirilməsi nəzərdə tutulur.



# Ballıcaya ilk köç

İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış davam edir. Xocalı rayonunun yenidən qurulan Ballıca kəndi də sakinlərini qəbul etməyə hazırdır.

Dekabrın 13-də respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət köç karvanı Ağdamdan Xocalının Ballıca kəndinə yola salınıb. İlk mərhələdə kəndə 27 ailə - 152 nəfər köçürülüb.

Keçmiş məcburi köçkünlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

# HƏRBİ XİDMƏTLƏ BAĞLI QANUNVERİCİLİK DƏYİŞDİRİLİR



"Hərbi vəzifə və hərbi xidmət haqqında" qanun dəyişdirilir. Təklif olunan dəyişikliklə, hərbi və ya alternativ xidmət keçmədən xəstəliyinə görə ehtiyata keçirilmiş hərbi vəzifəlilər 30 yaşına çatanadək (hazırda 35) hərbi xidmət keçməyə yararlı sayıldıqda çağırışçıların uçotuna qaytarılır.

"Hərbi vəzifə və hərbi xidmət haqqında" qanuna dəyişikliklər edilməsi təklif olunub. Dəyişikliklərə əsasən, təhsili davam etdirmək üçün çağırışa möhlət verilməsi qaydasında bəzi dəyişikliklər edilir. Üç təhsil pilləsi üzrə - kolleclərdə təhsil alan, bu müəssisələrə daxil olana qədər tam orta təhsil almamış çağırışçılara 21 yaşınadək (hazırda 22), bakalavriatda təhsil alanlara - müvafiq təhsilini bitirənədək, lakin 24 yaşdan çox olmamaqla (hazırda yaş məhdudiyyəti yoxdur), magistraturada təhsil alanlara – müvafiq təhsilini bitirənədək, lakin 26 yaşdan çox olmamaqla (hazırda yaş məhdudiyyəti yoxdur) möhlət veriləcək. Mövcud qanunvericilikdə əyani təhsilalma formasında bakalavriatda, magistraturada, doktoranturada (adyunkturada), əsas (baza ali) tibb təhsili və rezidenturada təhsil alanlara - təhsilini bitirənədək möhlət verilir.

### KOMİSSİYAYA ÇAĞIRILMA YAŞI 30-A ENDİRİLİR

Hərbi qanunvericiliyə edilən digər dəyişiklik xəstəliyinə görə hərbi xidmətə yararsız hesab olunan şəxslərin komissiyaya çağırılma yaşı ilə bağlıdır. Bu yaş həddi azaldılır. Təklif olunan dəyişikliklə, hərbi və ya alternativ xidmət keçmədən xəstəliyinə görə ehtiyata keçirilmiş hərbi vəzifəlilər 30 yaşına çatanadək (hazırda 35) hərbi xidmət keçməyə yararlı sayıldıqda çağırışçıların uçotuna qaytarılır və onlar ümumi qayda üzrə müddətli həqiqi hərbi xidmətə çağırılırlar.

### BU ŞƏXSLƏR ƏSGƏRLİYƏ ÇAĞIRILMAYACAQ

Dinc dövrdə vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilərək ehtiyata keçirilməsi halları da müəyyən edilir. "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanuna təklif edilən dəyişikliklə dinc dövrdə aşağıdakı vətəndaşlar müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilərək ehtiyata keçirilirlər:

- fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcəsi olan vətəndaşlar;
- sağlamlıq vəziyyətinə görə dinc dövrdə həqiqi hərbi xidmətə yararsız, müharibə dövründə məhdud yararlı sayılmış çağırışçılar;
- 30 yaşı tamam olanadək müxtəlif səbəblərdən müddətli həqiqi hərbi xidmət keçməmiş çağırışçılar;
- alternativ xidmət keçməyə göndərilmiş çağırışçılar;
- Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilənədək və ya Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyəti tanınanadək (doğulduğu anda hər iki valideyni Azərbaycan Respublikasının vətəndaşı olmuş şəxslər istisna olmaqla) əvvəllər vətəndaşı olduğu ölkənin qanunvericiliyinə əsasən müddətli həqiqi hərbi xidmət keçmiş və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilmiş şəxslər.

## CƏRİMƏLƏR ARTIRILIR

"Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə nəzərdə tutulan dəyişikliklə Azərbaycan Silahlı Qüvvələrinin müddətli həqiqi hərbi xidmət qulluqçularının xidmət keçmək üçün son yaş həddi 36,5-dən 31,5-ə endirilir. Hazırkı qanunvericiliyə əsasən, "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunun 39-cu maddəsinə müvafiq olaraq dinc dövrdə Azərbaycan Silahlı Qüvvələrinin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının xidməti üçün son yaş həddi 36,5 yaşdır. Dəyişikliklə son yaş həddi 31,5 olacaq.

Çağırışçılar və hərbi vəzifəlilər haqqında məlumatların vaxtında verilməməsinə görə cərimələr də artırılır. Bununla bağlı İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsi təklif edilib. Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin dekabrın 13-də keçirilən iclasında dəyişiklik barədə məlumat verilib. Dəyişikliklə çağırışçıların və hərbi vəzifəlilərin yaşayış yeri üzrə qeydiyyata alınması və ya qeydiyyatdan çıxarılması, əlilliyinin müəyyən edilməsi, onların soyadının, adının, atasının adının dəyişdirilməsi, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatında doğum tarixi və yeri haqqında dəyişikliklər edilməsi, ölümünün qeydiyyatı, habelə onlar barəsində cinayət işinin başlanılması və ya məhkəmənin qanuni qüvvəyə minmiş hökmü barədə məlumatı müvafiq icra hakimiyyəti orqanına təqdim etməli olan aidiyyəti orqanlar tərəfindən "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunu ilə müəyyən edilmiş müddətlərdə təqdim edilməməsinə görə vəzifəli şəxslər 300 manatdan 500 manatadək (hazırda 150-250 manat) məbləğdə, hüquqi şəxslər 900 manatdan 1 100 manatadək manatadək (hazırda 300-500 manat) məbləğdə cərimə ediləcəklər.




# YAXIN ŞƏRQDƏ TÜRKİYƏ-AZƏRBAYCAN MÜTTƏFİQLİYİ

Suriyada Əsəd rejiminin devrilməsi ilə prosesdən ən çox qazanclı çıxan tərəfin Türkiyə olduğu aydınlaşır. Türkiyə Suriyadakı proseslərdə əsas təsirli tərəf olmaq imtiyazını əldə etdi.





AQŞİN KƏRİMOV

Suriyada silahlı müxalifətin Bəşər Əsədi devirməsindən sonra baş verən geosiyasi proseslərin əhəmiyyəti və sürəti artıb. Regional və beynəlxalq dinamikanın Yaxın Şərqin nəbzi ilə tutuşdurulması fonunda Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng etməsi, liderlərin Cənubi Qafqaz regionu ilə Yaxın Şərqi eyni portfel daxilində müzakirə etməsi iki ölkənin strateji müttəfiqliyindəki planların yeni mərhələyə keçidini nümayiş etdirir. Azərbaycan və Türkiyə prezidentlərinin müzakirələri bundan sonra baş verə biləcək hadisələrdə rəsmi Ankaranın böyük payının olacağı müstəvisində diqqətəlayiqdir. Proseslər həm də Suriyada əsas oyunçu hesab edilən Rusiya, İran və ABŞ-nin strateji maraqları prizmasına da baxmağı tələb edir.

### RUSİYA ÇƏTİN DURUMDA

Rusiya Əsədi hakimiyyətdə saxlamağa maraqlı olmadığını göstərməklə əsas strateji prioritetinin Ukraynaya yönəldiyini sübut etmiş oldu. Amma Kremlin Əsədin devrilməsi ilə Yaxın Şərqdəki güc proyeksiyası yelləndi. Əsas diqqətlər indi Rusiyanın Aralıq dənizindəki əhəmiyyətli strateji sərmayəsinin mümkün fəlakətli itki ilə üzləşə biləcəyi ssenarilərinə yönəlir.

Çünki Rusiya dənizdə və quruda hərbi bazalarını itirsə, onun Afrikadakı manevr qabiliyyətləri də ziyan görəcək. Bu, Moskvanın bütün dünyada strateji təsirlərini azalda bilər. Bununla belə, Əsədin devrilməsi hələ Rusiya üçün tam itki deyil.

Kreml üçün ehtiyat qızıl açar da var. Çünki Əsəd rejiminin süqutu hakimiyyətin birbaşa qərbyönlü rejimlə əvəzlənməsinə səbəb olmayacaq. Suriyada qalib gələnlər arasında hakimiyyət mübarizəsi başlayarsa, bu, Moskvaya ABŞ, Türkiyə və İsraillə sövdələşmə imkanı verə bilər.

### İRAN-İSRAİL KONTEKSTİ

Əsədin sonu İran və onun "müqavimət oxu"na ciddi zərbədir. Çünki İran Suriyanı Livan "Hizbullah"ına silah ötürülməsində kritik qovşaq və əməliyyat bazası kimi istifadə edirdi. İndiki vəziyyət isə İsrailin İrana qarşı əməliyyatlarında və strateji planlarında dönüş nöqtəsidir və Tehranın proksi qüvvələrdən istifadə etmək qabiliyyətini sarsıdır. Ümumilikdə Tehran regional təhlükəsizlik strategiyasına yenidən baxmağa məcburdur. İranın Yaxın Şərqdəki təsir dairəsini genişlətmək cəhdlərinin daha bir uğursuz nümunəsinin Suriyada təkrarlanmasından sonra Tehranın diplomatik, siyasi və hərbi ritorikasını mötədil bir dilə çevirəcəyi qaçılmazdır.





## ABŞ TƏRƏDDÜDDƏ

ABŞ Əsədin süqutu fonunda terrorizmlə mübarizə, İranın təsirini cilovlamaq və Yaxın Şərqdə sabitliyi təşviq etməyə kömək edən tərəf kimi görünə bilərdi. Ancaq ABŞ Suriyanın şimal-şərq hissələrindəki nəzarət zonasını PKK-nın Suriya qanadı vasitəsilə qorumağa mükəlləf olduğundan sülhə dair nəticələri digər oyunçularla formalaşdırmaqda çox da həvəsli deyil. Üstəlik, ABŞ "Həyat Təhrir əş-Şam"ın, Suriya Milli Ordusunun əslində Türkiyə çərçivələrindən çıxması üçün çağırışlarını da artırır. Bunun səbəbi ABŞ-nin Suriya gündəliyində dominant oyunçu statusu əldə etmək istəyidir ki, bu da onu Türkiyə ilə üz-üzə qoya bilər.

## TÜRKİYƏ YAXŞI VƏZİYYƏTDƏ

Prosesdən ən çox qazanclı çıxan tərəfin Türkiyə olduğu aydınlaşır. Türkiyə Suriyada əsas təsirli tərəf olmaq imtiyazını əldə etdi. Türkiyənin Suriyanın şimalında öz təhlükəsizliyi xeyrinə formalaşdırmaq üçün qazandığı fürsətlər onun hədəflərini daha geniş regional çərçivələrə kökləyir. Türkiyə əksəriyyəti kürd olan milyonlarla suriyalı qaçqını yenidən Suriyaya yerləşdirmək imkanı da əldə etdi. Bunlar Ankaranın ardıcıl olaraq Yaxın Şərqdə mövqelərini böyütməsi və Cənubi Qafqazdakı əməliyyat modelini genişləndirməsinə böyük bir yol açır. Bu, Türkiyənin Cənubi Qafqazdakı mümkün geosiyasi risklərlə əlaqədar tərəddüdlərinə də son qoyacaq. Deməli, Əliyevlə Ərdoğanın telefon müzakirələri dar regional məsələləri deyil, genişlənmiş strateji maraqların müştərək ifadəsini təmsil edirdi. Suriyada Türkiyə və İsraildən başqa, digər oyunçuların üzləşdiyi problemlər onların Cənubi Qafqazdakı maraqları ilə mütənasiblik təşkil etdiyindən prosesə Ermənistan kadrları ilə də baxmaq lazımdır.

### İRƏVAN ÜÇÜN ŞOK

Ermənistan Bəşər Əsədin müdafiəçisi idi. İrəvan Əsəd rejiminin yardımı ilə İrandan Livana silah daşınmasında coğrafi lövbər rolunu oynayırdı. İran dəhlizinin Suriya və Livana gedən marşrutları haqqında kəşfiyyat məlumatlarına əsaslanan araşdırmalar diqqəti Ermənistana da cəmləşdirirdi.

İranın Azərbaycana qarşı Ermənistanı dəstəkləməsi həm də onun Cənubi Qafqaz və Yaxın Şərqdə assimetrik ambisiyalarından irəli gəlirdi. Ermənistan üzərindən İranın mülki təyyarələrlə Suriyaya və Livana silah daşıdığı haqqında məlumatlar bu fikri təsdiqləyir.

İndi Əsədin süqutu ilə Ermənistanın da gizli marşrutlar üzrə mövqeləri sıradan çıxmış oldu. Qısası, Əsədin devrilməsi İranın Ermənistan üzərində olan-qalan varlığını da darlaşdırır. Yəni, Əsədin devrilməsi Ermənistan üçün də əlavə mürəkkəbliklər gətirir və İrəvanın ekzistensial olaraq sağ qalması çətinləşir. Çünki Ermənistan Əsədi mühafizə edəcək silahlı dəstələri sülhməramlı adı altında Suriyaya yerləşdirmişdi və bu, onu sövdələşmə elementinə çevirirdi. İndi isə İrəvanın bu kartı da əldən çıxır. Mümkündür ki, Əliyevlə Ərdoğan nəhəng regional müstəvilərin Ermənistana da təsirlərini müzakirə ediblər.

Beləliklə, Bakı və Ankara üçün Əsədin devrilməsi Cənubi Qafqazda Ermənistan üçün təhlükəsizlik zəmanətləri axtaran qüvvələrin, o cümlədən İranın qəfil səhnədən çıxması perspektivinə baxışı da əks etdirir.

# YOLUMUZA İŞIQ SALAN DAHİ LİDER



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Müstəqil, güclü, ərazi bütövlüyü, suverenliyi bərpa edilmiş Azərbaycan... Bu, Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinin əsas amalı, qayəsi idi. Ömrünü tamamilə xalqına, dövlətinə həsr edən Ümummilli Liderin vəfatından bizi artıq 21 il ayırır. Hər il dekabrın 12-də - anım günündə Azərbaycan xalqı dahi şəxsiyyətə olan ehtiramını, sevgisini bildirmək üçün Fəxri Xiyabana üz tutur. Bəli, müasir Azərbaycan onun əsəridir. Xalqına həsr edilən dərin mənalı bir ömrün şah əsəri...

**Azərbaycanı məhv olmaqdan xilas edən, həqiqi müstəqil dövlətə çevirən Heydər Əliyev fəlsəfəsi daim bizim zəfər yolumuza mayak kimi işıq salacaq. Çünki bu yol güclü, müstəqil, suveren, ərazi bütövlüyü, sərhədləri tam bərpa edilmiş Azərbaycan dövlətinin yoludur.**

### MÜSTƏQİL, GÜCLÜ AZƏRBAYCANIN TƏMƏL DAŞLARI

Bu gün qalib dövlətin vətəndaşıyıqsa, bizləri zəfərə aparan yolun başlanğıcını bilmək, bu yolun fəlsəfəsini yaradan, istiqamətini müəyyənləşdirən Ulu Öndərin həyat və fəaliyyətini öyrənmək hər birimizin mənəvi borcu, vəzifəsidir. Çünki sahib olduğumuz qalib dövlət fəlsəfəsinin təməli məhz Ümummilli Liderin ideyalarına əsaslanır. Bəs nədir müstəqil, güclü Azərbaycanın təməl daşları?

Əgər 44 gün ərzində biz öz gücümüzlə 30 illik işğala son qoyaraq ərazi bütövlüyümüzü, suverenliyimizi bərpa etmişiksə, bu, görkəmli dövlət xadimi olan Heydər Əliyevin vaxtilə bütün xarici səfərlərində beynəlxalq aləmə Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olmasını anlatması sayəsindədir. Məhz onun gərgin və yorulmaz fəaliyyətinin nəticəsidir ki, bütün dünya Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini tanıdı. ATƏT-in tarixi Lissabon sammitində separatizmin kökünü laxladan məşhur sənəd qəbul edildi.

Lakin bu yolda Ulu Öndərin tək diplomatik yox, eləcə də iqtisadi, hərbi, sosial siyasət sahəsində atdığı addımlar da mühüm əhəmiyyət daşıyır. Bu gün iqtisadi inkişafımızın əsasını təşkil edən neft strategiyası, "Əsrin müqaviləsi", Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri, ölkəmizə yatırılan milyardlarla dollar həcmində xarici sərmayələr Azərbaycanın haqq səsinin dünyaya duyurulmasında istisnasız olaraq mühüm amil kimi dəyərləndirilməlidir. Uğurlu iqtisadi inkişafın ölkəmizə güclü maliyyə axınını təmin etməsi iqtisadiyyatın şaxələndirilməsinə, insanların sosial rifah halının yaxşılaşdırılmasına zəmin yaratdı.



### GÖRKƏMLİ DÖVLƏT XADİMİ, ƏSL LİDER

Ən nəhayət, güclü ordu quruculuğu, peşəkar hərbçilərin hazırlanması, Silahlı Qüvvələrimizin maddi-texniki bazasının gücləndirilməsi üçün münbit şərait formalaşdı. Ulu Öndərin Ali Baş Komandan olaraq daim ön cəbhədə hərbçilərlə görüşməsi, gənclərlə keçirdiyi görüşlərdə dövlətinə, vətəninə sevginin hər şeyin üstündə durduğunu anlatması bugünkü qalib Azərbaycan Ordusunun vətənpərvər qəhrəman nəfərlərinin yetişməsində əvəzsiz rol oynadı.

Ulu Öndər ölkədə daxili hərc-mərcliyə son qoyaraq, bütün vətəndaşların bir amal uğrunda birləşməsini təmin etdi. Parçalanma, məhvolma, vətəndaş müharibəsi, qardaş qırğını ilə üzləşən bir dövləti yenidən toparladı. Düşdüyü yerdən qaldıraraq daha möhkəm addımlarla irəliləməsinə yardımçı oldu. Bu səbəbdən əminliklə deyirik ki, müstəqil Azərbaycan Ulu Öndərin əsəridir. Çünki o, xalqının, dövlətinin ən çətin anında millətinin bir çağırışı ilə onun yardımına yürüdü. Görkəmli dövlət xadimi, əsl lider, rəhbər olduğunu bütün dünyaya göstərdi. Azərbaycanı müstəqil dövlət kimi qəbul etmək istəməyənlər məhz Heydər Əliyevin dəmir siyasi iradəsi və zəngin təcrübəsi qarşısında geri çəkilmək məcburiyyətində qaldılar.



## BU YOL ULU ÖNDƏR YOLUDUR

Ulu Öndərin Azərbaycan xalqı qarşısındakı ən böyük xidmətlərindən biri şübhəsiz ki, İlham Əliyev kimi müzəffər Ali Baş Komandan, lider yetişdirməsi idi. Məhz onun bizlərə miras qoyduğu, yaratdığı müstəqil Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün dünyada çox az sayda ölkələrin əldə etdiyi nailiyyətlərə, zəfərlərə imza atıb.

Torpaqlarımızın, göz bəbəyimiz olan Şuşamızın 30 illik işğaldan azad edilməsi, sərhədlərimizin bütövlüyünün təmini Ulu Öndər olaraq Heydər Əliyevin Azərbaycan xalqına, layiqli davamçısı Prezident İlham Əliyevə vəsiyyəti idi. Sağlam təməllər üzərində bizlərə miras qalan güclü Azərbaycana sahib olmağımız isə bu vəsiyyətin qeyd-şərtsiz yerinə yetirilməsini bizlər üçün ən başlıca vəzifə, məqsəd edirdi. Bəli, Şuşanın azad olunduğu gün Prezident İlham Əliyevin Fəxri Xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarı qarşısında vəsiyyətinin yerinə yetirildiyini qürurla səsləndirməsi hər birimiz üçün unudulmaz, bəlkə də həyatımızın ən xoşbəxt anlarından biri idi. Bu gün biz xalq olaraq, dövlət olaraq Ulu Öndərin arzuladığı Azərbaycana sahibik. Bu çıxdığımız yolda onun ideyaları ilə sabaha doğru inamla addımlayırıq. Bilirik ki, Azərbaycanı məhv olmaqdan xilas edən, əsl müstəqil dövlətə çevirən Heydər Əliyev fəlsəfəsi, Ulu Öndər düşüncəsi daim bizim zəfər yolumuza mayak kimi işıq salacaq. Çünki bu yol güclü, müstəqil, suveren, ərazi bütövlüyü, sərhədləri tam bərpa edilmiş Azərbaycan dövlətinin yoludur...

UZAQ ŞƏRQDƏ YAŞANAN SİYASİ BÖHRAN MÜHARİBƏ TƏHLÜKƏSİNİ ARTIRIR

# CƏNUBİ KOREYADA GƏRGİNLİK YARADAN FAKTORLAR

Böhranın yaranmasına səbəb olan amillər arasında prezident Yun Sok Yolun bir sıra qərarlarını qeyd etmək lazımdır. Hər şey onun ölkəni "dövlət əleyhinə elementlərdən" - müxalifət və mediadan qorumaq zərurəti barədə bəyanatı ilə başlayıb.





AZƏR NURİYEV

Cənubi Koreya Prezidenti Yun Sok Yolun ölkədə hərbi vəziyyət elan etməsi ilə bu Asiya ölkəsi bütün dünyanın diqqət mərkəzinə düşüb. Bu addım ictimai narazılıq və etirazlara səbəb olub, həmçinin müxalif deputatlar tərəfindən prezidentə qarşı impiçment cəhdlərinə gətirib çıxarıb. Hüquq-mühafizə orqanları prezidentin ofisinə basqın edib, axtarışlar həyata keçirib. Axtarışlar hərbi vəziyyətin elan edilməsi ilə bağlı verilən qərarın araşdırılması üçün yaradılmış xüsusi istintaq qrupu tərəfindən aparılıb. Milli Polis Agentliyinin baş komissarı Ço Cji Ho və paytaxt polisinin rəisi Kim Bon Siki həbs edilib.

Ölkə mediası yazır ki, Cənubi Koreyanın bu qalmaqaldan sonra istefa verməyə məcbur olan, istefadan sonra vətənə xəyanətdə şübhəli bilinərək həbs edilən keçmiş müdafiə naziri Kim Yong-Hyun həbsxanada intihara cəhd edib. Məlumata görə, Yun Sok Yola ölkədə hərbi vəziyyət elan etməyi məhz Kim tövsiyə edib.

**BÖHRANIN YARANMASINA SƏBƏB OLAN AMİLLƏR**

Böhranın yaranmasına səbəb olan amillər arasında prezident Yun Sok Yolun şəxsiyyəti və siyasəti ilə sıx bağlı olan bir sıra faktorları qeyd etmək lazımdır. Hər şey onun "dövlət əleyhinə elementlərdən" (müxalifət və media nəzərdə tutulur) konstitusiya qaydasını qorumaq zərurəti barədə bəyanatı ilə başlasa da, bu hadisənin arxasında bir çox yığılmış problemlər durur. Yun 2022-ci ildə seçkilərdə minimal fərqlə hakimiyyətə gəlib. Onun idarəçiliyi dərhal tənqidlərlə üzləşib və dekabrın 3-nə qədər Yunun əhali arasında reytinqi bir sıra korrupsiya qalmaqalları, o cümlədən həyat yoldaşının bahalı hədiyyə ilə bağlı araşdırmanın mərkəzində olması səbəbindən 19%-ə düşüb. Bundan əlavə, onun Şimali Koreyaya qarşı siyasəti və müxalifətlə kompromisə getmək istəməməsi də narazılığın artması üçün münbit şərait yaradıb.

**DÖVLƏT BAŞÇILARININ HƏBSİNƏ DAİR "ZƏNGİN TƏCRÜBƏ"**

Ölkədə hərbi vəziyyət elan edən prezident impiçmentdən qurtula bilib. Halbuki bunun üçün hakim partiyadan olan deputatların bir neçəsinin səsi kifayət edirdi. Hakim partiyanın bütün üzvləri müzakirələr zamanı parlamentin iclas zalını tərk ediblər. Bəziləri hesab edir ki, prezident kürsüsündə qalmaq üçün Yun Şimalla münaqişəyə girə bilər. Digər variant isə odur ki, ölkədəki siyasi böhran hələ uzun müddət davam edəcək, hər həftə impiçment təşəbbüsləri olacaq. Əgər müxalifət hakim partiyadan heç olmasa beş deputatı ələ ala bilsə, onda Yun Sok Yol prezident kürsüsündən düşürüləcək. O zaman onun həbsi də mümkün ola bilər - qiyamda ittiham olunacaq.

Cənubi Koreyanın keçmiş dövlət başçılarını həbs cəzasına məhkum etməkdə "zəngin" təcrübəsi var. Ən son nümunələr - korrupsiyaya görə 15 il həbs cəzasına məhkum edilmiş Li Myong Bak, rüşvət və səlahiyyətdən sui-istifadəyə görə 20 il həbs cəzasına məhkum edilmiş (sonradan əfv edilmiş) Pak Kın Hedir.

## TƏRƏFLƏR ÇAŞQINLIQ İÇİNDƏDİR

Cənubi Koreyada faktiki olaraq ikipartiyalı sistem mövcuddur: parlamentdə kiçik partiyalar təmsil olunsa da, onların təsiri əhəmiyyətsizdir. Şərti olaraq sağ yönümlü Yun Sok Yolun prezident seçkiləri ərəfəsində qoşulduğu "Xalq Gücü", şərti sol partiya isə KXDR ilə məsələlərin diplomatiya yolu ilə həllinin tərəfdarı olan Demokratik Partiyadır. Həm prezident, həm də müxalifət tərəfindən qəbul edilmiş qərarlar hər iki tərəfin çaşqınlıq içində olmasını göstərir.

**BEYNƏLXALQ İCTİMAİYYƏT BAŞ VERƏNLƏRİ İZLƏMƏKLƏ KİFAYƏTLƏNİR**

Beynəlxalq ictimaiyyət Cənubi Koreyadakı hadisələrə zəif reaksiya verib. Hərbi vəziyyət elan etmək cəhdinin uğursuzluğuna baxmayaraq, hamı başa düşür ki, böhran hələ bitməyib. Təsadüfi deyil ki, Koreyanın müttəfiqi olan ABŞ-nin müdafiə naziri Seula səfərini ləğv edib. Çin qonşu ölkədəki vəziyyətlə bağlı şərh verməkdən imtina edib. KXDR də hələlik susur, baxmayaraq ki, Pxenyanın qeyri-sabitlikdən istifadə edərək Cənubi Koreyaya hücum edə biləcəyi barədə şayiələr gəzir. "Toburo" blokunun sədri Li Ce Myong bildirmişdi ki, hərbi vəziyyətin tətbiqi və ləğvi KXDR-i "təhrik edə", silahlı toqquşmalara səbəb ola bilər.

Kreml Cənubi Koreyadakı vəziyyəti "narahatedici" adlandırıb. Rusiya XİN-in mətbuat katibi Mariya Zaxarova Qərbin diqqətini hərbi vəziyyətə cəlb edib və qeyd edib ki, Baltikyanı ölkələr Gürcüstana qarşı sanksiyalardan çəkinməsələr də, Cənubi Koreyaya qarşı çətin ki, sanksiyalar tətbiq edilsin. Rusiyadakı bir sıra ekspertlər prezident Yun Sok Yolun pisləşən vəziyyətini ədalətin təntənəsi hesab edirlər, çünki o, Koreyadan Ukraynaya silah tədarükünü dəstəkləyirdi. Qeyd edək ki, ölkə əhalisinin əksəriyyəti bu niyyəti pisləyib.

Beləliklə, Cənubi Koreyada mürəkkəb vəziyyət hökm sürür və çox güman ki, bu proses uzun müddət davam edəcək. İkinci Koreya müharibəsi ehtimalı da son 30 ildə heç vaxt olmadığı qədər yüksək görünür.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# İKİ MADDƏLİK ERMƏNİSTAN



Nə qədər ki, Ermənistan xaricdən gələn siqnalların qurbanıdır, Mirzoyanın arzuladığı sülh müqaviləsi barədə danışmaq əbəs olacaq. Müharibədə məğlub olan Paşinyan sülhü də uduzub.



RÜSTƏM QARAXANLI

Ermənistan rəsmilərinin sülh prosesi ilə bağlı açıqlamaları xarab olmuş qrammofon effekti verməyə başlayıb. Baş nazir Nikol Paşinyan və XİN rəhbəri Ararat Mirzoyanın səsləndirdikləri eyni məzmunlu bəyanatlar bu tezislərə əsaslanır: "mümkün sülh sazişinin əksər bəndləri razılaşdırılıb", "iradə nümayiş etdirilərsə, tezliklə yekun müqaviləni imzalamaq olar" və sair. Bu bəyanatlarda məzmun fərqlənməsə də, rəqəmlər dəyişikliyə uğrayır. Əgər COP29 ərəfəsində 15 bənddən 13-nün razılaşdırıldığı vurğulanırdısa, indi 17 və 15 rəqəmləri səsləndirilir.

### RƏQƏMLƏR DƏYİŞİR, FƏRQ İSƏ QALIR

Başa çatan həftə Ermənistanın xarici işlər naziri mahiyyətcə fərqlənməyən növbəti açıqlamasında tərəflərin 17 bənddən 15-nə dair razılığa gəldiklərini bildirdi. Mirzoyanın sözlərinə görə, "əgər kifayət qədər siyasi iradə olarsa, danışıqlar tezliklə başa çata və sülh müqaviləsi imzalana bilər".

Mirzoyanın avazı yaxşı gəlir, ancaq COP29-dan əvvəl olduğu kimi, indi də açıb demir ki, həmin razılaşdırılmamış iki bənd nədən ibarətdir. Düzdür, bəndlərin ümumi sayı artır və bu artıma nisbətdə də razılaşdırılmış maddələr çoxalır. Ancaq iki uzlaşdırılmayan məqam qalır ki, yekun sülhün ləngiməsi səbəbi də məhz bununla bağlıdır. Rəsmi İrəvan pasifist məzmunlu bəyanatlarını hər əlverişli imkanda təkrarlamaqla özünün sülh tərəfdarı olduğunu, ancaq "nədənsə" yekun müqavilənin hələ də imzalanmadığını göstərməyə çalışır. Hər dəfə "iradə" ifadəsinin üzərində dayanılmasında əsas məqsəd ondan ibarətdir ki, beynəlxalq ictimaiyyətə özlərinin sülh naminə mə-suliyyət altına girəcək qətiyyətə sahib olduqlarını nümayiş etdirsinlər.

### BAKININ KONSTİTUSİYA İSRARI

Ermənistandan fərqli olaraq, Azərbaycan rəsmiləri açıq şəkildə bildirirlər ki, yekun sülh sazişinin imzalanmasını əngəlləyən əsas səbəb Ermənistan konstitusiyasında ərazi iddialarının olmasıdır. Həmin o razılaşdırılmamış maddələrdən biri Ermənistanın konstitusiyası ilə bağlıdır. Mirzoyanla təqribən eyni vaxtda Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov da sülh sazişi ilə bağlı prosesin hazırki vəziyyətinə aydınlıq gətirdi. Erməni nazirdən fərqli olaraq, azərbaycanlı diplomat sülh müqaviləsinin önündə duran əsas maneə kimi İrəvanın konstitusion səviyyədə hələ də Azərbaycan torpaqlarına iddialı olmasına işarə edir: "Qarabağ Ermənistanın bir hissəsidir" müddəası Ermənistan konstitusiyasında əsas kimi qəbul olunur". O ki qaldı razılaşdırılmamış ikinci maddəyə, Azərbaycan tərəfi bunun da nədən ibarət olduğunu gizlətmir. "30 ildən çoxdur Ermənistan hökuməti öz sərhədlərini dəqiq olaraq müəyyən etməyib. Bizim sualımız odur ki, hazırda danışıq naminə danışıqlar aparırıq, ya yox?" - deyə E.Məmmədov vurğulayıb.



Ararat Mirzoyan



Elnur Məmmədov

## ERMƏNİSTAN NİYƏ TƏLƏSİR?

Aydındır ki, Ermənistan konstitusiyasında sözügedən müddəa aradan qaldırılmasa, Azərbaycan yekun sülhə imza atmayacaq. O da bəllidir ki, ana qanun dəyişikliyi müəyyən vaxt hesabına başa gələ bilər. Hazırda vəziyyət belədir ki, ərazi bütövlüyünü təmin edən Azərbaycan tələsmir. 30 il işğalın bitməsini gözləmişik, bir-iki il də Ermənistanın qanuni səviyyədə ağıllanmasını gözləyə bilərik. Paşinyan hökuməti isə həm tələsir, həm də konstitusiya islahatlarına start vermir.

Paşinyanı tələsdirən səbəblər çoxdur. Daxili siyasət müstəvisində seçkilər yaxınlaşır və elektorata cavab vermək lazım olacaq ki, müharibə uduzulubsa, bu vaxta qədər sülh niyə qazanılmayıb? Rəsmi İrəvanın Qərbdən gələn aldadıcı vədlərə şirnikləşib üç il əvvəl etməli olduğunu bu günə saxlaması Paşinyana baha başa gəlir.

İrəvanın vaxt itkisi tək konstitusion dəyişikliklərin ləngiməsilə kifayətlənmir. Fransa və İranın dumanlı vədlərinə aldanan Paşinyan "Orta dəhliz" kimi qlobal logistika layihəsinin bir hissəsi olmaq fürsətini də əldən verib. Tehranın Hindistandan Avropaya Ermənistan üzərindən yol çəkilişi planları, yaxud plan imitasiyası İrəvanın təcridinin davam etməsi deməkdir. İran Cənubi Qafqazda mövcudluğunu qorumaq istəyir, Fransa isə burada möhkəmlənmək niyyətindədir. Ermənistan nəyin yiyəsidir? Seçkilərdə bunu Paşinyandan mütləq soruşacaqlar.

## PAŞİNYANIN YETKİNLİK SİNDROMU

Nə qədər ki, Ermənistan xaricdən gələn siqnalların qurbanıdır, Mirzoyanın arzuladığı sülh müqaviləsi barədə danışmaq əbəs olacaq. Müharibədə məğlub olan Paşinyan sülhü də uduzub. Saziş imzalanmayıb, sərhədlər qapalıdır, iqtisadiyyat isə staqnasiyada. İrəvan rəsmiləri yekun müqavilə xəyalındadırlar, Fransanın avantürist səfiri isə növbəti dəfə Azərbaycanla sərhədə baş çəkib və bununla da dövlətinin hazırki gedişata münasibətini sərgiləyib. Rusiya Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkinin Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı verdiyi açıqlama bu baxımdan ciddi maraq doğurur: "ABŞ bütün cəbhələrdə təşəbbüsü itirir. Vaşinqton postsovet məkanında da uğursuzluğa düçar olmağa başlayıb". Diplomatik dildən tərcümədə bu bəyanat belə bir məna alır: Qərbdən yapışan düzdə qalar. Nə qədər ki, Ermənistan Qərbin diktəsi ilə oturub durur, milli maraqları arxa planda qalacaq. Regional və bir qədər genişmiqyaslı geosiyasi konyunktur da Ermənistanın xeyrinə deyil. Yeni konfiqurasiya Zəngəzur dəhlizinin aktuallığını nəinki artırır, hətta onun tezliklə reallaşmasını labüd edir.

İranın "qırmızı cizgilər"inin rəngi solub, itirə-itirə gedən Tehranın dəhliz dirənişində nə qədər tab gətirəcəyi bəlli deyil. Odur ki, Paşinyan-Mirzoyan cütlüyü bəndlərin sayının artımı deyil, çözümü ləngidən maddələr barədə düşünsə, daha yaxşı olar.



Sergey Narışkin

# İXTİSASI YARATDIQ, QALDI KADRI TAPMAQ

**Bugünlərdə ali təhsilin müxtəlif səviyyələri üzrə ixtisasların təsnifatları təsdiqlənib. Bakalavriat səviyyəsi üzrə bəzi ixtisasların adları dəyişdirilib, bəzi ixtisaslar isə bu təhsil pilləsi üzrə təsnifata əlavə olunub.**
























TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Müasir təhsil sistemi rəqəmsal çağırışlara hazır olmalıdır. Bu siqnalın əmək bazarından təhsil proqramlarına keçidini sürətləndirmək, işəgötürənləri təhsil müəssisələri ilə qarşılıqlı əlaqəyə daxil etmək artıq milli təhsilin də qarşısında duran məsələlərdəndir.

Bugünlərdə ali təhsilin müxtəlif səviyyələri üzrə ixtisasların təsnifatlarının təsdiqlənməsi də yeni reallıq üçün təhsil istiqamətində addım kimi dəyərləndirilə bilər. Belə ki, ali təhsilin bakalavriat, əsas (baza ali) tibb təhsili, magistratura səviyyəsi, eyni zamanda ali təhsilin rezidentura səviyyəsi üzrə ixtisasların təsnifatı təsdiq edilib. Bakalavriat səviyyəsi üzrə bəzi ixtisasların adları dəyişdirilib, bəzi ixtisaslar isə bu təhsil pilləsi üzrə təsnifata əlavə olunub. Təsdiq edilən yeni təsnifata bakalavriat səviyyəsi üzrə 153, əsas tibb təhsili səviyyəsi üzrə 3, magistratura səviyyəsi üzrə 129, rezidentura səviyyəsi üzrə 44 ixtisas daxil edilib. Ümumilikdə, bakalavr səviyyəsi üzrə 7 yeni ixtisas təsnifata əlavə olunub ki, onlar "Riyaziyyat və fizika müəllimliyi", "Data analitikası", "Kənd təsərrüfatı texnologiyaları", "Heyvandarlıq", "Qidalanma və diyetologiya", "Proqram təminatı mühəndisliyi" və "Qida texnologiyaları" ixtisaslarından ibarətdir. Eyni zamanda, doqquz ixtisasın adında dəyişiklik edilib.

Magistratura səviyyəsi üzrə isə 34 ixtisasın təsnifatı dəyişdirilib, 20 ixtisas təsnifatdan çıxarılıb.

Qeyd edilib ki, yeni ixtisaslar növbəti ildə təhsil ocaqlarında tədris ediləcək.

Mütəxəssislər hesab edir ki, yeni yaradılan və adında dəyişiklik olan ixtisaslar təkcə milli təhsil sisteminin yenilənməsi üçün deyil, ümumilikdə ölkənin iqtisadi, texnoloji və sosial inkişafına dəstək göstərən sahələr üçün kadr hazırlığına yol açır. Tələbələrin bu imkanlardan yararlanması üçünsə təhsil müəssisələrində müasir laboratoriyaların, praktik mərkəzlərin və bu sahələr üzrə ixtisasları tədris edən müəllim heyətinin olması mütləqdir ki, tələbələr tədris prosesində nəzəri biliklərlə yanaşı, praktiki təcrübələrə də yiyələnə bilsinlər.

Bəs yeni reallıqda təhsil istiqamətində yaradılan ixtisasların tədrisi üçün kadr potensialı və mükəmməl proqram necə, varmı?

Ekspertlərimiz məsələyə ümidlə yanaşsalar da, çətinliklərin olduğunu da inkar etmirlər.

## "Kadr yoxdur, amma bu, qorxulu bir şey deyil"

**"Yeni ixtisasları tədris etmək üçün kadr ola bilsin ki, yoxdur, amma bu, qorxulu bir şey deyil", - deyə professor Şahlar Əsgərov bildirir: "Əsas odur ki, yeni ixtisaslar cəmiyyətin tələbatına uyğun olsun. Kadrı hazırlamaqla və ya qonşu ixtisasdan kadr cəlb etməklə bu problemi həll etmək olar. Hesab edirəm ki, yeni ixtisasları artırmaq ağıllı addımdır. Həmin ixtisaslar çox əhəmiyyətli, yeni dövrə uyğun, cəmiyyətin bütün sahələrində inkişafa təkan verə biləcək ixtisaslardır. İxtisas varsa, kadr da yetişəcək". Professor hesab edir ki, 2025-ci ildə tədris olunacaq yeni ixtisaslara marağın artırılması, təhsil və əmək bazarı arasında əlaqələrin gücləndirilməsi ilə mümkündür.**



## "İqtisadiyyatın inkişafı baxımından da əhəmiyyətlidir"

Azərbaycan Tibb Universitetinin professoru Adil Qeybulla hesab edir ki, ölkədə müxtəlif istehsal sahələri və həyatın bütün istiqamətləri üzrə mütəxəssislərin hazırlanması çox vacibdir: "Bu, bizim iqtisadiyyatın inkişafı baxımından da əhəmiyyətlidir. O cümlədən, səhiyyə, təhsil və digər sahələr üçün də önəmlidir. Bu baxımdan, təhsil sahələrinin mütəxəssislərinin və ixtisasların identifikasiyasının müəyyən edilməsi alqışlanmalıdır. Amma ilk növbədə bu ixtisasları tələbələrə öyrədə bilən mütəxəssislərin olması lazımdır. Bunun üçün infrastruktur qurulmalıdır. Məsələn, tibdə rezidentura səviyyəsində, başqa sahələrdə magistr səviyyəsində hazırlayan mütəxəssislər lazımdır ki, həmin gənclər sonra lazımi səviyyədə fəaliyyət göstərə bilsinlər. Yalnız o halda biz həmin ixtisasların ali təhsildə uğurlu tətbiqini həyata keçirə bilərik. Olsun ki, lazımi qurumlar yeni ixtisasların yaradılmasını və bəzilərinin dəyişdirilməsini adekvat hesab edib və bu addımı atıblar". Professorun fikrincə, yeni ixtisasların yaranması ilə bağlı ciddi araşdırma da ortaya qoyulmalıdır.

## "İxtisas artımı spontan bir iş deyil"

ADA Universitetinin professoru Gülməmməd Məmmədov hesab edir ki, əgər bu ixtisaslar üçün müraciətlər edilibsə, bunu edən ali təhsil müəssisələri o istiqamətdə yüksək keyfiyyətli təhsil verə biləcək kadr potensialının olmasından əmindirlər: "İxtisas artımı spontan, planlanmamış bir iş deyil. Mənim işlədiyim dövrdə ADA Universitetində də dəfələrlə yeni ixtisaslar yaratmışıq. Biz bu ixtisaslarda oxuyacaq tələbələrin alacaqları dərsləri tədris edəcək müəllim potensialının olmasından əmin olandan sonra belə ixtisasları yaradırıq və bunun üçün lazımi müraciətləri edirik. Düşünürəm ki, digər ali təhsil müəssisələri də eyni prinsiplə belə müraciətləri ediblər". G.Məmmədovun sözlərinə görə, Dövlət Proqramı çərçivəsində xarici ölkələrdə doktorantura səviyyəsində təhsil alan xeyli gənc var ki, onlar yaxın illərdə təhsillərini başa vurub ölkəmizə qayıdacaqlar. Bu, həmin ixtisaslar sahəsində kadr potensialının artması deməkdir: "Mənə elə gəlir ki, bu müraciətləri edən ali təhsil müəssisələri o şəxslərin geri dönəcəyini göz önünə alaraq yeni ixtisaslar yaratmaq qərarını veriblər". G.Məmmədov yeni qərarı mütərəqqi addım kimi dəyərləndirir: "Çünki yeni dövrə uyğun olaraq fəaliyyət sahələri yaranır və o sahələrdə çalışacaq yüksək ixtisaslı kadrlara ehtiyac var. Həmin ixtisasların ali təhsil müəssisələrində mövcud olan sahələrini genişləndirmək və yeni profillər yaratmaq zərurətdən irəli gələn işdir".



Adil Qeybulla

Şahlar Əsgərov

Gülməmməd Məmmədov

Foto: Firudin Salimov - Global Photostock

## “AZƏRBAYCANIN MƏDƏNİ İRSİ İLƏ BAĞLI MÜHAZİRƏLƏRİM BÖYÜK MARAQ DOĞURUR”

# SEULUN FƏXRİ VƏTƏNDAŞI OLAN AZƏRBAYCANLI XANIM



SÖHBƏTLƏŞDİ
AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

**Rahil Əhmədova:** “Koreyada Azərbaycan vətəndaşlığımı qoruyub saxlamaq mənim üçün yalnız hüquqi bir status deyil, eyni zamanda içimdəki kimlik və mənlik hissinin təzahürüdür. Hər dəfə pasportuma baxanda, bu, mənim kim olduğumu və haradan gəldiyimi xatırladır”.

Asiya ölkələrinə olan marağı onu Cənubi Koreyaya qədər aparıb. O, bu ölkədə tək təhsil almaqla kifayətlənməyib. Azərbaycanı tanıtmaq üçün təmənnasız fəaliyyət göstərib. Hətta Seul Universitetinin Pedaqoji Kolleci tərəfindən təşkil edilən müəllimlər üçün mədəni müxtəliflik üzrə ixtisasartırma kursunu bitirib və Seul şəhərinin bütün ibtidai, orta və ali məktəblərində mədəni müxtəliflik və Azərbaycan mədəniyyəti ilə bağlı təhsil verir.

Müsahibimiz Koreyadakı Azərbaycan icmasının üzvü, Seul şəhərinin fəxri vətəndaşı Rahil Əhmədovadır. O, artıq 10 ildən çoxdur ki, Koreyada multikultural cəmiyyət haqqında dərs deyir, həmçinin Seul meriyasının xarici ölkələr üzrə təlimatçısıdır.

Qubadlıda anadan olub. Məcburi köçkün kimi Bakıya gəlib və orta məktəbi burada bitirib. Daha sonra Azərbaycan Dillər Universitetinin (ADU) koreya-ingilis dili tərcümə fakültəsində təhsilini davam etdirib. Bir il sonra - 2008-ci ildə Koreya Dövlət Təqaüd Proqramı vasitəsilə Cənubi Koreyaya yollanıb. Keimyung Universitetinin bakalavr, Kyunpuk Milli Universitetinin isə magistratura pilləsini bitirib. Həmyerlimiz Cənubi Koreyada multikulturalizm və əcnəbi sakinlərin inteqrasiyasına dəstək sahəsində göstərdiyi xidmətlərə görə 2023-cü ildə Seul şəhərinin fəxri vətəndaşı adına, eləcə də Koreya Gender Bərabərliyi və Ailə Nazirliyinin mükafatına layiq görülüb.

### “XARİCİLƏR VƏ ÇOXMİLLƏTLİ AİLƏLƏRƏ KÖMƏK ETMƏK İSTƏYİRDİM”

● **Rahil xanım, bu il Cənubi Koreyadakı fəaliyyətinizin 16 ili tamam olacaq. Bu ölkəyə marağınız necə yarandı?**

● Uşaqlıqdan Asiya ölkələri ilə maraqlanırdım. ADU-da tərcümə fakültəsində Koreya dili bölümü yeni açılmışdı. O fakültəni seçəndə ətrafımdakılar təəccüblənmişdilər. Təsəvvür edin, Koreya deyəndə Çin və Yaponiya ilə qarışdırılan bir dövrdən bəhs edirik. Həmin vaxt dost-tanış deyirdi ki, Koreya dilini öyrənib iş tapa bilməyəcəksən. Mən isə ixtisasımı sevir, təhsil aldıqca karyeramla bağlı daha çox planlar qururdum. Koreya Dövlət Təqaüd Proqramına müraciət etdim və təhsilimə burada davam etdim. Əslində, magistraturanı bitirib, iş təcrübəsi qazandıqdan sonra Azərbaycana qayıtmağı planlayırdım. Amma işləyərkən həyat yoldaşımla tanış oldum və ailə qurub bu ölkədə yaşadıq.

● **İş təcrübəsi qazanmaq üçün başladığınız fəaliyyət sizi Seul şəhərinin fəxri vətəndaşı, Koreya Gender Bərabərliyi və Ailə Nazirliyinin xüsusi mükafatına qədər aparıb...**

● Bəli. Bu ad 10 il ərzində Koreya Respublikası nazirliklərinin nəzdində multikulturalizmlə bağlı siyasətlərin təklif edilməsi, multikultural problemlər haqqında məlumatlılığın artırılması və ölkədə əcnəbi sakinlərin sabit məskunlaşmasına dəstək vermək kimi sahələrdə göstərdiyim xidmətlərimə görə verilib. Koreya uzun illər təkmillətli ölkə olub. Mən də burada yaşayan çoxmillətli ailələr və xaricilərin rifahını yaxşılaşdırmaq üçün çalışırdım. Çünki ətrafımdakı xaricilər və çoxmədəniyyətli ailələrin çətinliklərini yaxından izləyir, onlara kömək etmək istəyirdim. Hazırda Koreyada təkmillətli ölkə ənənəsi getdikcə, dəyişir. Artıq dövlət çoxmillətliliyi siyasət kimi irəli sürməyə başlayıb. Bu istiqamətdə nazirliklərin tərkibində komitələr fəaliyyət göstərir. Mən də Gender Bərabərliyi və Ailə Nazirliyində Çoxmillətli ailələr komitəsinin üzvüyəm. Komitə vasitəsilə Cənubi Koreyada yaşayan xaricilər və xaricilərlə ailə quran koreyalılar, onların uşaqları ilə bağlı layihələr irəli sürürük. Mən də cənubi koreyalı ilə evliyəm, bizim də övladımız bu kateqoriyaya daxildir. Cənubi Koreyada yaşayan xaricilərin hamısı yaxşı yerlərdə işləmir, hətta vizasız yaşayanlar çoxdur. Bu, getdikcə dövlətə problemlər yaratmağa başlayır. Nazirliyin üzvü olaraq çalışırıq ki, orada diqqətdən kənarda qalan xaricilərin yaşayışını düzəldək.



### “ÖZÜMÜZÜ TANITMASAQ, HEÇ KİM BİZİ TANIMAYACAQ”

● **Cənubi Koreya nə üçün ənənəsini dəyişməyə və çoxmillətli ailələri təbliğ etməyə başlayıb?**

● Çünki burada uşaq doğumu çox aşağı səviyyədədir və yaşlıların sayı həddindən artıq çoxdur. Əgər belə davam edərsə, Cənubi Koreya bir neçə il ərzində ciddi təhlükə ilə üz-üzə qalacaq. Mən dərslərimdə öz ölkəmizi misal gətirirəm. Biz tolerant ölkəyik, başqasının dilinə, dininə və irqinə görə onlara qarşı ayrı-seçkilik etmirik. Bunu eşidən koreyalı müəllimlər də öz tələbələrinə danışırlar. Məlumat zəncir kimi paylaşılır və açıq fikirli cəmiyyət ortaya çıxır. Bu, Cənubi Koreya hökumətinin hazırda yürütdüyü siyasətdir. Bunun sayəsində Cənubi Koreya həm çoxmillətli ölkəyə çevriləcək, həm də əhalisinin sayı azalmayacaq. Bu sahədə gördüyüm işlər Cənubi Koreya hökuməti tərəfindən yüksək qiymətləndirilir. Bundan əlavə, media vasitəsilə bu bilgiləri yaymağa çalışıram.

● **Siz həm də Cənubi Koreya Ədliyyə Nazirliyində Koreyaya adaptasiya olmağa çalışan digər xaricilərin mentoru kimi fəaliyyət göstərirsiniz. Bu fəaliyyətinizdə məqsədiniz nədir?**

● Bu rol mənə onların qarşılaşdığı çətinlikləri daha yaxşı anlamaq və onlara uyğun dəstək göstərmək imkanı yaradır. Öz təcrübələrimdən istifadə edərək, onlara həm Cənubi Koreya cəmiyyətinə inteqrasiya yollarını göstərir, həm də öz mədəniyyətlərini unutmadan bu ölkədə uğur qazanmağın mümkün olduğunu izah etməyə çalışıram. Mentorluq fəaliyyətimdə əsas məqsədim xaricilərin həyatlarını asanlaşdırmaq və Koreyada özlərini evlərindəki kimi hiss etmələrinə töhfə verməkdir. Mühazirələrimdə və tədbirlərdə tez-tez verdiyim mesaj budur ki, hər birimiz öz mədəniyyətimizin daşıyıcısıyıq. Əgər yaşadığımız cəmiyyətdə özümüzü tanıtmasaq, heç kim bizi tanımayacaq. Koreyada yaşamaq çətin olsa da, öz köklərimizi unutmamaq və yerli cəmiyyətə inteqrasiya olmaq həm hüququmuz, həm də vəzifəmizdir. Bu mesajlar adaptasiya olmaqda çətinlik çəkən çoxmədəniyyətli ailələr üçün motivasiya rolunu oynayır. Onlara göstərməyə çalışıram ki, hər bir insan öz mədəniyyətini yaşatmaqla həm özünə, həm də cəmiyyətə dəyər qatır.

### “İNDİ AZƏRBAYCAN DEYƏNDƏ HEÇ KİM TƏƏCCÜBLƏNMİR”

● **Bu fəaliyyətlərinizlə yanaşı, Cənubi Koreya prezidenti və xanımı ilə reklam filminə də çəkilmisiniz.**

● Bəli, Gender bərabərliyi və Ailə Nazirliyindən bizə zəng edib Prezident Sarayına dəvət etdilər. Oraya daxil olmaq, Prezident və xanımı ilə reklam filminə çəkilmək mənim üçün yuxu kimi idi. Uşaqların içində ən balacası qızım Arin idi. Prezidentin xanımı qızımı qucağına aldı. Prezident Sarayında çəkilən dörd dəqiqəlik bayram təbriki videosunda Prezident Yun Sok Yol və birinci xanım Kim Kon Hi ilə birlikdə iştirak etdik.





● **Rahil xanım, özünüz də qeyd etdiniz ki, koreyalılara təlim keçərkən ölkəmizi misal gətirirsiniz. Təlimlərinizdə ailə dəyərlərimizdən danışır, hətta Cırtdanın nağılını belə Cənubi Koreya radiosunda təqdim edirsiniz. Geri dönüşləri necə alırsınız?**

● Cənubi Koreyanın dövlət televiziyası və radiosuna tez-tez dəvət alıram. Hətta bir dəfə Azərbaycana həsr olunan verilişdə 40 dəqiqə ərzində ölkəmizin qədim tarixi, coğrafiyası, zəngin mədəni irsi və Qarabağ müharibəsi barədə məlumat vermişdim. Əslən Azərbaycanın Qarabağ bölgəsindən olduğumu, erməni işğalı nəticəsində dörd yaşında olarkən doğma vətənimdə məcburi köçkünə çevrildiyimi, torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı danışmışdım. “Bayatılar” mahnımızı ilk dəfə Cənubi Koreya radiosunda səsləndirdik. Koreyalılar çox sevdilər və yenidən eşitmək istədilər. Bununla yanaşı, 2-3 həftədən bir nağılımızı danışmaq üçün məni dövlət kanalı olan KBS radiosuna dəvət edirlər. Nağıllarımızı Koreya dilinə tərcümə edib danışıram. 2008-ci ildə Cənubi Koreyaya ilk dəfə gələndə ölkəmizi tanıyan demək olar ki, yox idi. Bu, mənə pis təsir edirdi. Düşündüm ki, buradayam və ölkəmizi düzgün şəkildə tanıtmaq borcumdur. Əlbəttə, o vaxt indiki kimi imkanlarım yox idi, tələbə idim. Amma qəzetlərə yazılar verir, Azərbaycandan gəldiyimi xüsusi vurğulayırdım. Cənubi Koreyada ölkəm üçün təmənnasız gördüyüm işlər həddindən artıq çoxdur. Məsələn, universitetlərdə hər dəfə mühazirə keçəndə ilk 5-10 dəqiqə mütləq Azərbaycan haqqında danışır, sonra öz mövzuma keçirdim. İndi Azərbaycan deyəndə heç kim təəccüblənmir.

> *“2008-ci ildə Cənubi Koreyaya ilk dəfə gələndə ölkəmizi tanıyan demək olar ki, yox idi. Bu, mənə pis təsir edirdi. Düşündüm ki, buradayam və ölkəmizi düzgün şəkildə tanıtmaq borcumdur.”*

● **Koreyalıları ölkəmizlə bağlı daha çox nə təəccübləndirir?**

● Məktəblərdə Azərbaycanın mədəni irsi ilə bağlı mühazirələrim böyük maraq doğurur. Tələbələrlə Azərbaycan xalçalarının incə naxışlarından tutmuş muğamın fəlsəfi dərinliklərinə qədər bir çox mövzu haqqında danışırıq. Bir dəfə tələbələrdən biri dərsdən sonra məndən muğam dinləmək üçün tövsiyələr istəmişdi. Digər bir tədbirdə isə tələbələr Azərbaycan xalçalarının tarixi və onların UNESCO tərəfindən qorunması ilə bağlı suallar vermişdilər. Bu cür marağın gələcəkdə iki ölkə arasında mədəni əlaqələrin daha da güclənməsinə töhfə verəcəyinə inanıram. Mühazirələrim tək Azərbaycan mədəniyyəti ilə bağlı deyil. Tələbələrə Azərbaycanın qədim İpək Yolu üzərində yerləşdiyini, Şərq və Qərb arasında körpü rolunu oynadığını izah edirəm. Bu, tələbələrin Azərbaycanın beynəlxalq ticarət və mədəni mübadilə baxımından nə qədər strateji əhəmiyyətə malik olduğunu daha yaxşı anlamalarına kömək edir. Bir dəfə dərs vaxtı tələbələrdən biri Şəki haqqında sual verdi və bu rayondakı abidələri görmək istədiklərini bildirdi. Din mövzusuna toxunarkən, Azərbaycanın multikultural və tolerant cəmiyyət quruluşundan danışmağa xüsusi diqqət yetirirəm. Mühazirələrimdə İslamın Azərbaycandakı rolu, eləcə də xristianlıq və yəhudi icmalarının tarixindən bəhs edirəm. Onlar Azərbaycanın həm qədim məscidləri, həm də kilsələri və sinaqoqları ilə zəngin bir ölkə olduğunu öyrənəndə, bu mədəni müxtəliflikdən təsirlənirlər. Azərbaycanın dini və tarixi irsi ilə bağlı bu cür müzakirələr koreyalı tələbələrdə həm təəccüb, həm də rəğbət oyadır. Onlar Azərbaycanı yalnız tarixi baxımdan deyil, həm də mədəni və dini tolerantlıq nümunəsi kimi tanımağa başlayırlar.




## “AZƏRBAYCANIMLA OLAN ƏN DƏRİN BAĞIM VƏ ƏN BÖYÜK QÜRURUM...”

● **Adətən, xarici ölkədə yaşayanlar öz dilini unutmaqdan, övladının dili bilməməsindən narahatlıq keçirirlər.**

● Övladım Koreya cəmiyyətində yaşadığı üçün bu dilin təsirinə daha çox məruz qalır. Amma mən onunla hər gün Azərbaycan dilində danışır, nağıllarımızı öz dilimizdə öyrədirəm. Azərbaycan dilini yaşatmaq, övladıma da ana dilimi öyrətmək ən böyük missiyamdır. Övladımın Azərbaycan dilini öyrənməsi və yaşatması mənim üçün ən vacib məsələlərdən biridir. İnanıram ki, bir insan öz köklərini qoruduğu müddətcə, harada yaşamasından asılı olmayaraq, kimliyini unutmur. Qızımın azərbaycanlı olduğunu dərk etməsi, mədəniyyətimizi və dilimizi sevməsi üçün hər gün əlimdən gələni edirəm. Axı dilimizi qorumaq, mədəniyyətimizi yaşat-maq gələcək nəsillərimizə ötürəcəyimiz ən böyük mirasdır.




● **16 ildir Cənubi Koreyada yaşamağınıza baxmayaraq, vətəndaşlıq üçün müraciət etmirsiniz. Bunun xüsusi bir səbəbi varmı?**

● Bəli, hazırda Cənubi Koreyada daimi yaşayış vizası ilə yaşayıram. Koreyalılar tez-tez mənə bu sualı verirlər. Azərbaycanla Cənubi Koreya arasında ikili vətəndaşlıq hazırda mümkün deyil. Mən isə öz vətənimin vətəndaşlığından imtina etməyi heç vaxt düşünə bilmərəm. 30 il öz torpaqlarından didərgin düşmüş, məcburi köçkün kimi yaşamağa məcbur olmuş insan kimi vətənim mənim üçün nə qədər böyük dəyər kəsb etdiyini hər zaman hiss etmişəm. Vətən yalnız bir coğrafiya deyil, həm də insanın kimliyini, mənliyini və gələcəyini təyin edən müqəddəs yerdir. Ona görə də Azərbaycan vətəndaşlığımı qoruyub saxlamaq mənim üçün yalnız hüquqi bir status deyil, eyni zamanda içimdəki kimlik və mənlik hissinin təzahürüdür. Hər dəfə pasportuma baxanda, bu, mənim kim olduğumu və haradan gəldiyimi xatırladır. Bu, mənim Azərbaycanımla olan ən dərin bağım və ən böyük qürurumdur. Cənubi Koreyada yaşamaq mənim üçün bir fürsət və xoşbəxtlikdir. Amma Azərbaycan vətəndaşı olaraq qalmaq həm bir borc, həm də böyük şərəfdir.

TIXAC PROBLEMİNİN KÖKLÜ HƏLLİ ÜÇÜN KOMPLEKS YANAŞMAYA EHTİYAC VAR

# SUMQAYITLILARIN HƏLLİNİ GÖZLƏDİKLƏRİ PROBLEM

Ekspres avtobuslar, qatar, marşrut xətləri olsa da, Sumqayıt-Bakı yolundakı sıxlığı hələ də tam aradan qaldırmaq mümkün olmayıb. Ekspertlər düşünürlər ki, problemin həlli üçün hələ çox iş görülməlidir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Son zamanlar Bakı-Sumqayıt istiqamətində sərnişin daşımaları ilə bağlı ard-arda qərarlar qəbul edilir. Xeyli müddətdir iki şəhərlər arasında sürət qatarları işləyir. Metronun "Avtovağzal" stansiyasından da Sumqayıta avtobuslar gedir. Dekabrın 9-dan Bakı-Sumqayıt istiqamətində 594 nömrəli yeni ekspres avtobus marşrutu istifadəyə verilib. Bu barədə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) bildirilib. Sumqayıt Avtovağzalından yola düşən avtobusların son dayanacaq məntəqəsi metronun "20 Yanvar" stansiyası müəyyən edilib.

Ümumilikdə Bakı-Sumqayıt istiqamətində görülən bu işlər özünü nə qədər doğruldur? Sərnişin sıxlığını nəzarətdə saxlamaq üçün başqa hansı addımların atılmasına ehtiyac var?

### "GÜNDƏLİK TƏQRİBƏN 80 MİNƏ YAXIN SƏRNİŞİN DAŞINIR"

AYNA-dan sorğumuza cavab olaraq bildirildi ki, 594 nömrəli Bakı-Sumqayıt ekspres marşrutu üzrə sərnişinlərin daşınması 17 "Neoplan" markalı avtobusla ilə səkkiz dəqiqəlik hərəkət intervalı ilə həyata keçirilir: "Bakı Beynəlxalq Avtovağzal Kompleksi"ndən Sumqayıt şəhərinə səfər etmək üçün istismarda olan müasir və komfortlu 595 nömrəli ekspres marşrut xətti də fəaliyyətini davam etdirir. Qeyd edək ki, Bakı şəhərindən Sumqayıt şəhəri və Abşeron rayonunun müxtəlif ərazilərinə müntəzəm avtobus marşrutları ilə gündəlik təqribən 80 minə yaxın sərnişin daşınır".

Qurumdan verilən məlumata görə, ekspres avtobuslarla yanaşı, Bakı-Sumqayıt istiqamətində gündəlik olaraq müntəzəm marşrut xətləri üzrə 21 avtobus da sərnişinlərə xidmət göstərir: "Sumqayıt şəhərinin müxtəlif ərazilərindən yola düşən avtobusların son dayanacağı Bakı Beynəlxalq Avtovağzal Kompleksinin qarşısındakı "Avtovağzal" metro stansiyasıdır. Sərnişinlər avtovağzal ərazisindəki Nəqliyyat Mübadilə Mərkəzindən avtobuslarla Bakının istənilən nöqtəsinə gedə bilərlər. Eyni zamanda, metronun "Azadlıq prospekti" stansiyasını Sumqayıtın Sülh küçəsi ilə əlaqələndirən 123 nömrəli müntəzəm marşrut xətti üzrə də gündəlik 15 avtobus sərnişinlərə xidmət göstərir".

### QATARLA DAHA ÇOX SƏRNİŞİN DAŞINA BİLƏR

Nəqliyyat məsələləri üzrə ekspert Rauf Ağamirzəyevin sözlərinə görə, Sumqayıt istiqamətində yeni ekspres xəttin açılması müsbət haldır. Amma məsələ tək bununla bitməməlidir: "Dəmir yolunda qatarların və stansiyaların sayını artırmağa ehtiyac var. Dəmir yolu ilə gündəlik 37 min sərnişin daşınır. Lakin bu rəqəm daha da böyük olmalıdır. Bunun üçün qatarların qrafiki sıxlaşdırılmalıdır. Bir növ yerüstü metro funksiyası daşımalıdır. Qatar hansısa metro stansiyalarının yaxınlığından keçirsə, həmin ərazilərdə dayanacaqların olması sərnişin axınının parçalan-masına və şəhər nəqliyyatında fərqli marşrutların yaranmasına səbəb olacaq. Həmin stansiya-lara əlçatanlıq məsələsi də həll edilməlidir. Hazırda Bakı-Biləcəri-Xırdalan-Sumqayıt daha az qatar sayı olan istiqamətdir. Koroğlu-Zabrat-Pirşağı-Sumqayıt istiqamətində isə qatar bir saatdan bir hərəkət edir. Amma intervalı maksimum yarım saat etmək mümkün olsa, istifadə edən sərnişinlərin də sayı xeyli artacaq".



Rauf Ağamirzəyev

### ƏLAVƏ DAYANACAQLARA EHTİYAC VAR

R.Ağamirzəyevin fikrincə, "Avtovağzal" metrostansiyasından hərəkət edən ekspres avtobuslar mikromobilliyi təmin edirdi. Lakin onun da çatışmayan cəhətləri mövcuddur: "Bənövşəyi xətt yeddi dəqiqəlik intervalla hərəkət edir. Daha qısa intervala düşmək mümkün olsa, o zaman sərnişin axını xeyli artacaq. Bakı və Sumqayıtdan sərnişin axınını tam təmin edə bilmək üçün bir neçə vasitə və istiqamət olmalıdır. Yəni "Avtovağzal" və "20 Yanvar"dan əlavə dayanacaqlara da ehtiyac var".

## NƏZARƏT GÜCLƏNDİRİLMƏLİDİR

Ekspert yeni fəaliyyətə başlayan 594 nömrəli ekspres avtobusla bağlı tənzimlənməli məsələlərə də toxundu: "20 Yanvar" ərazisindən hərəkət edən ekspres avtobusun çıxdığı dayanacaqda digər avtobuslar da dayanır. Elə etmək lazımdır ki, bir neçə avtobus eyni anda dayanacağa yaxınlaşa bilsin. "20 Yanvar" dairəsindən avtobus təşkil edilməsi təqdirəlayiq olsa da, burada əsas məsələ həmin avtobusun avtovağzala qədər olan ərazidə tıxaca düşməsidir. Şamaxinka deyilən ərazidəki sıxlıq hər kəsə məlumdur. Düşünürəm ki, xüsusi avtobus zolağının ayrılmasına və sərt nəzarətə ehtiyac var. Ekspres avtobuslar sabit qrafiklə işləyərsə, qanuni sərnişindaşınma daha da artar".

### YENİ MARŞRUTUN TƏŞKİLİ SƏRNİŞİNLƏRİN İŞİNİ ASANLAŞDIRACAQ

Nəqliyyat sahəsi üzrə ekspert Eldəniz Cəfərov da düşünür ki, "20 Yanvar" ərazisindən Sumqayıt istiqamətinə marşrutun açılmasına ehtiyac var idi: "Çünki insanlar əsasən metronun "20 Yanvar" stansiyasına gəlməyə vərdiş etmişdilər. Avtovağzaldan sonra "20 Yanvar" ərazisində də ekspres avtobusların təşkili sərnişinlərin işini daha da asanlaşdıracaq. Ekspres avtobuslar müasir, son model nəqliyyat vasitələridir. Bu səbəbdən düşünürəm ki, keyfiyyətli və təhlükəsiz daşınma təmin ediləcək".

E.Cəfərov Sumqayıt istiqamətinə qanunsuz hərəkət edən nəqliyyat vasitələrindən də bəhs etdi: "Qanunsuz sərnişindaşıma hər zaman mövcud olub. Fikrimcə, bunun qarşısını birdəfəlik almaq mümkün olmayacaq. Həm də bunu düzgün addım hesab etmirəm. Çünki avtobusların hərəkət etmədiyi saatlarda insanların işi ola bilər. Bu zaman orada fəaliyyət göstərən taksilərlə hərəkət edirlər. Amma qanuni sərnişindaşımanın keyfiyyəti yüksəldikcə, insanlar avtobusları seçəcəklər. Beləliklə, qeyri-qanuni sərnişin daşıyanların sayı xeyli azalacaq".



Eldəniz Cəfərov

BU İSTİQAMƏTDƏ ÖLKƏMİZDƏ SON 25 İLİN ƏN YÜKSƏK GÖSTƏRİCİSİ QEYDƏ ALINIB

# KÖRPƏ ÖLÜMLƏRİ NİYƏ ARTIB?

Körpə ölümlərinin artmasını statistik məlumatlar da təsdiqləyir. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ildə bir yaşınadək ölən uşaqların sayı 2 039 nəfər təşkil edib. Bu da son 25 ilin ən yüksək göstəricisi hesab olunur.

SEVİNC ABBASOVA

Azərbaycanda körpə ölümlərinin sayında artım müşahidə edilir. Nəticədə son illər bu sahədə əldə olunan müsbət göstəricilər geriləməyə doğru gedir. Təkcə Zaqatala rayonunda qısa müddətdə 4 yeni doğulmuş körpənin ölüm faktı qeydə alınıb. Hazırda hüquq-mühafizə orqanları həmin faktlarla bağlı araşdırmalar aparırlar. Körpə ölümlərinin artmasını statistik məlumatlar da təsdiqləyir. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ildə bir yaşınadək ölən uşaqların sayı 2 039 nəfər təşkil edib. Bu da son 25 ilin ən yüksək göstəricisi hesab olunur. 2023-cü ildə ölkə üzrə bir yaşınadək həyatını itirən uşaqların sayı 2022-ci ilə nisbətən iki dəfədən çox artıb. Belə ki, 2022-ci ildə bir yaşadək həyatını itirən uşaqların sayı 959 olub.

Bəs görəsən, ölkəmizdə körpə ölümləri niyə artıb?

### 1 287 UŞAQ PERİNATAL DÖVRDƏKİ PROBLEMLƏRDƏN DÜNYASINI DƏYİŞİB

Statistik məlumatlara əsasən, ötən il 2 039 nəfər uşağın əksəriyyəti, təxminən 63 faizi (1 287) perinatal dövrdə meydana çıxan hallar səbəbindən dünyasını dəyişib. Tənəffüs sistemi xəstəlikləri səbəbindən 187 uşaq həyatını itirib. Bu səbəbdən həyatını itirən uşaqların maksimum göstəricisi 2000-ci ildə 979 nəfəri təşkil edib. Eyni zamanda bir yaşına çatmayan 136 uşaq anadangəlmə anomaliyalardan (inkişaf qüsurları, deformasiyalar və xromosom pozuntuları), 47 uşaq bəzi infeksion və parazitar xəstəlik səbəbindən, 88 uşaq sinir sistemi xəstəliklərindən, 18 uşaq həzm sistemi xəstəliklərindən, 259 körpə isə digər səbəblərdən həyatını itirib.



Nazilə Hüseynova

### BİR YAŞINADƏK ÖLƏN UŞAQLARIN SAYI

2022-ci ildə: 959 nəfər

SON 25 İLİN ən yüksək göstəricisi

2023-cü ildə: 2 039 nəfər



### ÖLÜMƏ SƏBƏB OLAN XƏSTƏLİKLƏRİN TƏSNİFATI

| | |
|---|---|
| Tənəffüs sistemi xəstəlikləri | 187 |
| Anadangəlmə anomaliyalar | 136 |
| İnfeksion və parazitar xəstəliklər | 47 |
| Sinir sistemi xəstəlikləri | 88 |
| Həzm sistemi xəstəlikləri | 18 |
| Digər səbəblər | 259 |

## BU TESTLƏR PULSUZDUR

Pediatr-neonatoloq Nazilə Hüseynova deyir ki, yeni doğulan körpələrdə müxtəlif problemlər müşahidə oluna bilər: "Məsələn, yeni doğulan körpələrdə sarılıq tez-tez rast gəlinən vəziyyətdir. Sarılığın fizioloji və patoloji növləri olur. Fizioloji sarılıq əsasən uşaq həyatının 2-3-cü sutkasında müşahidə edilir və təqribən 2-3 həftədə tamamilə aradan götürülür. Patoloji sarılıq fizioloji sarılıqdan fərqli olaraq daha tez, əsasən həyatın ilk sutkalarında qeyd olunur və uzun müddət davam edir. Patoloji sarılıq müxtəlif xəstəliklərin, o cümlədən ana ilə uşaq arasında qrup və rezus üzrə uyğunsuzluq, qaraciyər və öd axarları, infeksion, irsi xəstəliklər, doğuş travmaları nəticəsində inkişaf edir".

Mütəxəssis deyir ki, körpələrdə xəstəliklərin vaxtında aşkarlanması üçün ən yaxşı üsul topuq testinin tətbiqidir: "Bu testlə endikrinoloji pozğunluqlar verə bilən 35-ə yaxın xəstəlik aşkarlana bilər. Bu testi verməklə valideynlər heç nə itirmir. Tam əksinə, əgər körpədə hər hansı bir xəstəlik varsa, bu vaxtında aşkarlanır və mütəxəssislər tərəfindən müdaxilə edilir. Biz ailələrə bu testi tövsiyə edirik. Dövlət tibb müəssisələrində bu testlər pulsuzdur".

### "HƏKİMƏ GEC MÜRACİƏT EDİRLƏR"

Tanınmış pediatr Vaqif Qarayev bildirir ki, südəmər uşaqlar adətən tənəffüs sistemi, mədə-bağırsaq, mərkəzi sinir sistemi, genetik xəstəliklər səbəbindən ölürlər: "Bu, bütün dünyada belədir. Çünki sadaladığım sistemlər erkən yaşda tam mükəmməl olmur və uşaqlar xəstəliyə çox meyil edirlər. Xüsusilə, uşaq orqanizmi infeksion xəstəliklərə daha çox meyilli olur. Amma bizdə həkimə gec müraciət etmək kimi praktika da var. Əksər valideynlər uşaqlarının sağlamlığına biganədirlər. Mütəmadi olaraq uşaqlarla işlədiyim üçün bu qənaətə gəlmişəm. Uşaq orqanizminin müqavimət sistemi tam formalaşmadığı üçün ağırlaşmalar baş verir. Məsələn, pnevmoniyaya vaxtında müdaxilə olunmasa, körpə həyatını itirir. Eləcə də mədə-bağırsaq infeksiyalarına vaxtında müdaxilə olunmasa, qusma və ishaldan uşaq orqanizmi susuzlaşır".



Vaqif Qarayev

## "İNSANLAR BƏHANƏ ETMƏSİNLƏR Kİ, PULUMUZ YOXDUR"

Həkim qeyd edir ki, uşaqların sağlam olması üçün bəzi məqamlara diqqət yetirilməsi zəruridir: "Öncəliklə, ailə planlaşdırılması düzgün aparılmalıdır. Risk faktorları nəzərə alınmalıdır. Tutaq ki, ananın yaşı 35-dən yuxarıdırsa, hamiləlik riskli olacaq. Əvvəlki hamiləlikdə ölü doğulma, qanaxma kimi hallar qeydə alınıbsa, riskli hamiləlik faktoru yüksəkdir, erkən və qohum nikahlar risk yaradır. Biz son vaxtlar irsi-genetik xəstəliklərin həddindən artıq çoxaldığını da müşahidə edirik. Son vaxtlar qohum evlilikləri ilə bağlı böyük bir ajiotaj yaşandı və qanunla qan qohumlarının nikahını qadağan elədilər".

V.Qarayev vurğulayır ki, hamilə qadın mayalanma günündən uşaq doğulana qədər mütləq həkim nəzarətində olmalıdır: "Hamiləlik zamanı keçirilən infeksiyalar birmənalı olaraq dölə, onun immun sisteminə təsir edir. İcbari tibbi sığortanın tətbiqindən sonra Azərbaycanda əhalinin tibbi xidmətə əlçatanlığı xeyli artıb. Yəni insanlar bəhanə etməsinlər ki, həkimə getməyə pulumuz yoxdur. Bir dəfə də olsun həkim qapısı döyülmür, doğulanda da bəlli olur ki, uşaq ya yarımçıq, ya da ağır patologiya ilə doğulub".

### UŞAQ ÖLÜMLƏRİNİN STATİSTİKASI SİSTEMLƏŞDİRİLMƏLİDİR

Tibb elmləri doktoru, professor Adil Qeybulla isə hesab edir ki, uşaq ölümlərinin statistikasının sistemləşdirilməsinə ehtiyac var: "Bir şeyi nəzərə almaq lazımdır ki, ötən il ölkədə qızılca epidemiyası yayılmışdı və bu xəstəlik uşaqlar arasında xeyli ölüm hallarına səbəb oldu. Eyni zamanda, son illər uşaqlar başa çatmayan koronovirus pandemiyasından əziyyət çəkdilər. Yəni belə bir qarışıq vəziyyətdə statistikanın sistemləşdirilməsinə ehtiyac var. Uşaqların daha çox hansı xəstəliklərdən dünyasını dəyişdiyi ətraflı təhlil olunmalıdır. Bununla bağlı Səhiyyə Nazirliyinin müvafiq strukturları iş aparmalıdırlar".

## DİPLOMATİK FƏALİYYƏTİN HÜQUQİ ƏSASLARI MÖHKƏMLƏNƏCƏK

# ÇOXDAN GÖZLƏNİLƏN QANUN



Milli Məclis “Diplomatik xidmət haqqında” qanun layihəsini birinci oxunuşda qəbul edib. Layihə bu sahədə çalışanların hüquq və vəzifələrini müəyyənləşdirir.

Diplomatik xidmət orqanları əməkdaşlarının fəaliyyət istiqamətləri müəyyənləşir. Bununla bağlı yeni hazırlanan “Diplomatik xidmət haqqında” qanun layihəsi Milli Məclisin plenar iclasında müzakirəyə çıxarılıb.

### DİPLOMATİK XİDMƏT ƏMƏKDAŞLARININ VƏZİFƏLƏRİ

Layihəyə əsasən, diplomatik xidmət orqanlarının əməkdaşları Azərbaycanın xarici siyasətinin həyata keçirilməsi, xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda təmsil olunmasında, ölkənin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının, milli təhlükəsizliyinin və milli maraqlarının xarici siyasət vasitələri ilə və diplomatik üsullarla qorunmasını təmin etməlidirlər.

Bundan başqa, diplomatik xidmət orqanlarında çalışan əməkdaşları ölkənin xarici siyasətinin vahid xətt üzrə həyata keçirilməsinin təmin edilməsi məqsədilə Azərbaycan dövlət orqanlarının (qurumlarının) xarici əlaqələr sahəsində fəaliyyətini əlaqələndirməlidir.

Diplomatik xidmət orqanlarında xidmət keçən əməkdaşlar xaricdə yaşayan soydaşlarla bağlı dövlət siyasətinin həyata keçirilməsinə və əlaqələrin inkişafına dəstək verilməsində, dövlət protokolunun təmin olunmasında, konsul işinin təşkil edilməsi və konsul funksiyalarının həyata keçirilməsində iştirak etməlidirlər.

### HANSI MƏHDUDİYYƏTLƏR NƏZƏRDƏ TUTULUR?

Yeni qanun layihəsinə əsasən, diplomatik orqanların əməkdaşları xidmət keçdiyi dövrdə siyasi partiyalara üzv olmasına, eləcə də siyasi partiyaların və dini qurumların fəaliyyətində iştirak etməsinə, əlavə ödənişli (əmək qanunvericiliyində nəzərdə tutulan qaydada müvəqqəti əvəzetməyə görə haqqın ödənilməsi halları istisna olmaqla) seçkili və ya təyinatlı vəzifə tutması, xidmət keçdiyi diplomatik orqan rəhbərinin icazəsi olmadan pedaqoji fəaliyyətlə məşğul olmasına, dövlət orqanının (qurumunun) və ya yerli özünüidarəetmə orqanının işləri üzrə üçüncü şəxslərin nümayəndəsi (təmsilçisi) olmasına məhdudiyyət tətbiq edilir.



Polad Bülbüloğlu

Foto: Sabir Məmmədov - Global Photostock

### DİPLOMATLARIN DAHA SƏMƏRƏLİ İŞLƏMƏSİNƏ ŞƏRAİT YARANACAQ

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu bildirib ki, yeni qanunun qəbulundan sonra diplomatik fəaliyyətin hüquqi əsasları möhkəmlənəcək. O qeyd edib ki, yeni qanun layihəsi çoxdan gözlənilirdi və diplomatların bundan sonra daha da səmərəli işləməsinə şərait yaradacaq: “Bir il bundan öncə diplomatların maaşı kəskin artırıldı. İndiki XİN rəhbərliyi səfirlərin və səfirliklərin işinə çox diqqətlə yanaşır, problemləri həll etməyə çalışır. Vəziyyət ildən-ilə düzəlir. Yeni qanunun qəbulundan sonra isə diplomatik fəaliyyətin hüquqi əsasları möhkəmlənəcək”.

## Qadın səfirlərin sayı azdır

Mili Məclisin deputatı Nigar Arpadarai isə bildirib ki, diplomatiya sahəsində qadınların sayının artırılması üçün müvəqqəti kvota tətbiq edilə bilər. O qeyd edib ki, Azərbaycanda qadın səfirlərin sayı azdır: “Kvota sistemi və pozitiv diskriminasiyanın tərəfdarı deyiləm. Amma müvəqqəti addımlar atmaq, imtiyazlar vermək mümkündür. Diplomatiya sahəsində qadınların sayının artırılması üçün müvəqqəti kvota tətbiq edilə bilər”.

Deputat həmçinin vurğulayıb ki, vaxtilə bir neçə dəfə səfir təyin olunmuş bəzi yaşlı diplomatlar hazırda işsizdirlər: “Onlara nə XİN-də, nə digər əlaqədar orqanlarda müvafiq iş yoxdur. Lakin onlar hələ də işləmək istəyirlər və həmin kadrların təcrübəsindən hansısa şəkildə istifadə etmək olar”.

Milli Məclisin sədri Sahibə Qafarova isə deputatın qadınlarla bağlı kvota tətbiqi haqqında təklifinə müsbət yanaşmadığını söyləyib: “Kvota məsələsi gender bərabərliyi problemi olan ölkələrdə keçərli ola bilər. Azərbaycanda isə gender bərabərliyi Konstitusiyada da öz əksini tapıb”.

Layihə səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul olunub.



Nigar Arpadarai

Foto: Tapdiq Abdullayev - Global Photostock

# SOCAR İTALİYA BANKINDAN MALİYYƏ VƏSAİTİ CƏLB EDİR

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə İtaliyanın “Intesa Sanpaolo” bankı arasında maliyyə vəsaitinin cəlb edilməsinə dair müqavilə imzalanıb. Oxu.Az xəbər verir ki, bu barədə SOCAR məlumat yayıb. Bildirilib ki, SOCAR-ın vitse-prezidenti Zaur Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti İtaliyanın Milan şəhərində səfərdə olub.



Səfər çərçivəsində “Intesa Sanpaolo” bankının və onun törəmə şirkəti olan “Vseobecna Uverova” bankının rəhbər heyətləri ilə səmərəli görüşlər keçirilib, əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi ilə bağlı müzakirələr aparılıb.

Eyni zamanda, səfər çərçivəsində SOCAR-ın beynəlxalq maliyyə bazarında tədavüldə olan istiqrazları üzrə İtaliyadan olan mövcud və potensial investorlarla görüşlər keçirilib.

Görüşlərdə maliyyə bazarındakı son vəziyyət, SOCAR-ın maliyyə göstəriciləri, reytinqləri və yaşıl enerji sahəsindəki planları ilə bağlı geniş təqdimat edilib.

Üç əsrin qəzeti Kaspi

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 2895
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# ELEKTRİK BENZİNƏ QALİB GƏLƏ BİLMİR

Ölkəmizdə hibrid və elektro-mobillərin sayı artsa da, statistik məlumatlar benzin və dizeldən istifadə həcminin azalmadığını göstərir. Əksinə, son bir ildə bu statistikada ciddi artım müşahidə edilir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



Son vaxtlar dünyada, o cümlədən Azərbaycanda hibrid və elektriklə işləyən avtomobillərin sayı artır. Məntiqlə bu, ölkədə yanacaq sərfiyyatını azaltmalıdır. Amma hələlik bunu müşahidə edə bilmirik. Cari ilin yanvar-oktyabr aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılar tərəfindən təkcə avtomobil benzini və dizel yanacağına 2 780,2 milyon manat xərclənib. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu göstərici 2023-cü ilin müvafiq dövrünün göstəricisini 6,5 faiz üstələyir. Xatırladaq ki, ötən il Azərbaycanın pərakəndə ticarət şəbəkəsində istehlakçılar tərəfindən avtomobil benzini və dizel yanacağına 3 063,4 milyon manat xərclənib, bu da illik müqayisədə 8,1 faiz artım deməkdir. Bəs nə zaman bu sahədə keçirilən islahatların nəticəsini az da olsa, müşahidə edə biləcəyik? Əgər yanacaqdan istifadə azalarsa, yanacaqdoldurma məntəqələrini hansı aqibət gözləyir?

Azərbaycan Avtomobil Dilerləri Assosiasiyasının icraçı direktoru Eyyub Əliyevin sözlərinə görə, hazırda ölkədə yaşıl enerjiyə keçidlə bağlı mühüm işlər görülür: "Nəzərə almalıyıq ki, bizim avtoparkımızdakı maşınların 85 faizdən çoxunun yaşı 10 ildən yuxarıdır, yəni köhnə avtomobillərdir".



Eyyub Əliyev

## YAXIN BEŞ İLDƏ VƏZİYYƏT DƏYİŞMƏYƏCƏK

Onun sözlərinə görə, bu sahədə güclü islahatlar həyata keçirilir: "Elektrik və hibrid avtomobillərə güzəştlərlə yanaşı, təbliğ və təşviq də gündəmdədir. Həmçinin taksi parklarımız da yenilənir. Köhnə avtomobillər də utilizasiya prosesinə cəlb olunur".

E.Əliyevin fikrincə, hər kəs yeni və müasir avtomobil ala bilmir. Bu zaman daxili yanma mühərrikli avtomobillərə maraq artır. Belə olduqda yalnız avtomobil parkımız yenilənir, amma yanacağa olan tələbat dəyişməz olaraq qalır: "Nəzərə alaq ki, gənc nəsildən hamı hələlik elektrikli avtomobil almır. Yaşlı nəslin əksəriyyəti də daxili yanma mühərrikli avtomobillərə öyrəşib. Onların birdən-birə elektrikli avtomobil sürməyə başlaması bir az çətindir. Utilizasiyaya gedən avtomobilə görə verilən pulla elektrikli avtomobil almaq da mümkün deyil. Belə olduqda insanlar məcbur qalıb ucuz və yerli istehsal benzinlə işləyən avtomobilə yönəlirlər. Bu amilləri göz önünə alsaq, dizel və benzinin yaxın beş ildə aktuallığını itirəcəyini görməyəcəyik. Bu illər ərzində həm elektrik, həm də ənənəvi yanacağa tələbat qalacaq".



## ALICILAR HƏLƏ DƏ RİSK ETMƏK İSTƏMİR

İqtisadçı Emin Qəribli isə düşünür ki, benzin və dizel yanacağına tələbatın artması olduqca normaldır: "Çünki əhalinin sayı da artır. Belə olduqda avtomobillər də çoxalır. Nəzərə almalıyıq ki, köhnə avtomobillər ölkəmizdə yetəri qədər çoxdur. Onlar köhnəldikcə yanacağa olan tələbatları da xeyli yüksəlir. Üstəlik ölkəmizə gələn avtomobillərin hamısı da hibrid və elektrikli deyil. Böyük həcmdə dizel və benzinlə işləyən avtomobillərə maraq hələ də qalır".

E.Qəribli bildirdi ki, elektrikli maşınların bəzi çatışmayan cəhətləri onlara olan tələbata da təsir edir: "Lakin ölkəmizdə bunun azalması üçün də işlər görülür. Məsələn, elektrikli avtomobillərin idxalı zamanı rüsum alınmır, vergidən azaddırlar. Bu amillər elektriklə işləyən maşınların artmasına təsir edir. Düşünürəm ki, son illər gözlə görülən artım var. Amma insanların bəziləri hələ də elektrikli avtomobilləri almağa risk etmir. Bunun da səbəbləri var. Çünki elektrikli avtomobillər qışda 300-400 km və hətta ondan da az məsafələri qət edə bilir. Rayonlara maşın sürmək istəyən insanlar ona görə elektrikli avtomobillərə keçmir. Amma şəhər içində sürmək üçün əlverişlidir".



Emin Qəribli

## "BU MƏSƏLƏ İLƏ BAĞLI MİNİMUM ON İL VAXTA EHTİYAC VAR"

İqtisadçının fikrincə, icra edilən işlər nəticəsində bu sahədəki yenilikləri və artımları daha çox görəcəyik: "Bir il ərzində elektrik enerjisi ilə işləyən maşınların idxalı 70 faizə qədər artıb. Amma əvvəlki illərdə bu daha az idi. Elektriklə işləyən avtobuslar da gətirilir. Enerji doldurma məntəqələrinin də sayındakı artımı vurğulamaq lazımdır. Məntəqələrin artırılması üçün də işlər görülür. Müəyyən güzəştlər tətbiq edilir ki, şərait yaradılsın, avadanlıq qurulsun. Zənnimcə, yaxın zamanda onların da sayında xeyli artım görəcəyik".

Müsahibimiz düşünür ki, elektriklə işləyən maşınların sayı artdıqca yanacaqdoldurma məntəqələri də yavaş-yavaş işıq enerjisinə keçid edəcək: "Amma bunun tez olacağını düşünmürəm. Dərhal bütün maşınlar elektriklə işləyə bilməz. Elektrik doldurma məntəqələrinə keçid elə də asan proses deyil. Nəzərə almalıyıq ki, bir maşın saatlarla enerji doldurmalıdır. Sürətli yığım üçün aparatlar var. Lakin onlar da çox enerji istifadə edir. Bütün avadanlıqlar o gücə uyğun olmalıdır. O səbəbdən, bu məsələlərin tez bir zamanda həll edilməsi asan deyil. Minimum on il vaxta ehtiyac var. Bu müddətdə yəqin ki, yeni texnologiyalar da tətbiq olunacaq".

ÇIXIŞ YOLU DİGƏR NƏRƏ CİNSLİ BALIQ NÖVLƏRİNİN ÖLKƏMİZƏ GƏTİRİLMƏSİDİR

# İSTEHSALI ARTSA DA, UCUZLAŞMIR

Ölkəmizdə qara kürünün istehsalı da, xaricdən idxalı da artıb. Bununla belə, daxili bazarda bu məhsul ucuzlaşmır. Ekspertlər bunu istehsalın az olması və yalnız ixrac üçün nəzərdə tutulması ilə əlaqələndirirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

2024-cü ilin yanvar-sentyabr ayları ərzində Azərbaycanda 617.1 kiloqram nərə balığı kürüsü istehsal edilib. Dövlət Statistika Komitəsinin hesabatında bildirilir ki, bu göstəricinin həcmi 2023-ci ilin yanvar-sentyabr ayları ilə müqayisədə 49 faiz və ya 203.1 kiloqram çoxdur. Belə ki, 2023-cü ilin ilk doqquz ayı ərzində Azərbaycanda 414 kiloqram nərə balığının kürüsü istehsal edilib. Qeyd edək ki, 2024-cü ilin yanvar-avqust ayları ərzində Azərbaycandan 553 min 780 ABŞ dolları dəyərində 480 kiloqram nərə balığının kürüsü ixrac edilib. Bu dövrdə qara kürünün bir kiloqramının orta ixrac qiyməti isə 1 961 manat təşkil edib. Bu ilin səkkiz ayında Azərbaycana Çindən 1 milyon 89.9 min ABŞ dolları dəyərində 3 630 kq qara kürü idxal edilib. Bu məhsulun bir kiloqramının orta idxal qiyməti isə 510 manat təşkil edib. Bəs hazırda bu sahədə vəziyyət necədir? Qara kürü istehsalının artması daxili bazarda bu məhsulun qiymətlərinə necə təsir edəcək?

### “ÖLKƏMİZ BU SIRADA ÇOX GERİDƏDİR”

“Azərbaycan Balıq İstehsalçıları və Emalçıları Assosiasiyası” İctimai Birliyinin sədri Zaur Salmanlının sözlərinə görə, statistikada göstərilən məlumatlar bu sahədəki vəziyyəti tam əks etdirmir. Kürü istehsalında hazırkı vəziyyət statistikada əks olunan rəqəmlərdən bir neçə dəfə çoxdur. İdxal rəqəmləri də reallığı əks etdirmir.

Sədrin fikrincə, istehsalımız çox olsa da, hələ də dünya ölkələrindən xeyli geridəyik: “Dünyada qara kürü istehsalı 2023-cü ildə 500-550 ton həcmində qiymətləndirilib. Bunun sadəcə 300-350 tonu Çində istehsal edilir. Azərbaycan bu sırada çox geridədir. Baxmayaraq ki, ölkəmizdə qara kürü istehsalı qədim ənənələrə malikdir. Amma istehsalımızı dünya standartları səviyyəsinə qaldıra bilməmişik. Bunun əsas səbəblərindən biri dövlət dəstəyinin olmamasıdır. İstehsalımız 1-2 ton həcmindədir və çox azdır. Yerli kürü əsasən ixrac-yönümlüdür”.



Zaur Salmanlı



NƏRƏ BALIĞI KÜRÜSÜ İSTEHSALI

2023-cü il, yanvar-sentyabr: 414 kq

49% artım

2024-cü il, yanvar-sentyabr: 617.1 kq

## “ÇİN KÜRÜSÜ YERLİ İSTEHSAL ADI İLƏ SATILIR”



Z.Salmanlı deyir ki, ölkəmizə idxal edilən kürünün keyfiyyətinə xüsusi nəzarət olmalıdır: “Daxili bazarımızda Çin kürüsü satılır. Pərakəndə satış qiyməti 800-900 manatadır. Ehtimallarımıza görə, ölkəmizdə 10 ton kürü istehlakı var. Onun 80 faizindən çoxunu Çin kürüsü təşkil edir. Çin kürüsü müxtəlif adlar altında satılır. Hətta yerli istehsal adı ilə də satılma halları mümkündür. AQTA Çindən gələn kürünün keyfiyyətinə daha diqqətlə yanaşmalıdır. Çin kürüsü nərə balıqlarının təmiz növlərindən deyil. Hibridlərdən istehsal olunur. Onların istehsalında konservantlardan istifadə edilir. İstehlakçılarımızı da qorumalıyıq”.

### TƏK ÇARƏ DÖVLƏT DƏSTƏYİDİR

Sədr qiymət məsələsinə də toxundu: “Qiymətlər böyük görünə bilər. Lakin orta dünya qiymətlərinin çox altındadır. Azərbaycan bazarında bu məhsulun qiymətinin enməsinin yeganə yolu digər nərə cinsli balıq növlərinin ölkəmizə gətirilməsidir. Məsələn, cökə balığı gətirilib. Xəzər dənizinin Volqa hövzəsinə aid, kiçik nərə cinsli balıqdır. Kürüsü bir az daha kiçik olduğu üçün daha münasib qiymətə satılır”.

Z.Salmanlının sözlərinə görə, yaxın illərdə istehsalın daha da artırılması gözlənilәndir: “İllik 15 ton istehsal reallaşa bilər. Artımın davamlı olmasının tək yolu bu sahəyə dövlət dəstəyinin göstərilməsidir. Bu, həm bizim mədəni irsimizdir, həmçinin böyük ixrac potensialına malik olan məhsuldur. İqtisadiyyatımız, həmçinin ölkəmizin tanıdılması cəhətdən özünəməxsus rolu var”.

### QADAĞA MÜSBƏT TƏSİR EDİB

İqtisadçı Akif Nəsirli isə düşünür ki, istehsaldakı artımda ovlanmanın qadağan edilməsinin rolu böyükdür: “Azərbaycanda nərəkimilərin sayının artırılmasını müşahidə edirik. Çünki Xəzər dənizində nərəkimilərin ovlanılması qadağandır. Tək ölkəmizdə deyil, İrandan başqa digər Xəzəryanı ölkələrdə də nərəkimilərin ovlanması qadağan edilib. Qarşıdakı illərdə də bu balıqları süni şəkildə yetişdirən fermerlər təsərrüfatlarını genişləndirə bilsələr, ölkəmizdən qara kürü ixracı da genişlənər”.

### “FERMERLƏR İXRACDA MARAQLIDIRLAR”

A.Nəsirlinin fikrincə, fermerlər xarici bazarda qoyduqları qiyməti daxili bazara tətbiq edə bilmədiklərindən bunda maraqlı deyillər. Belə olan halda qiymətlərdə enmələr də mümkün olmur: “Azərbaycanda daxili bazarda qiyməti aşağı salacaq qədər istehsal mümkün deyil. Çünki dünya bazarında qiyməti olduqca yüksəkdir. Yerli kürünün daxili bazara çox az qismi çıxır. Əksəriyyəti isə dünya bazarlarına ixrac edilir. Bəzi hallarda qara kürünün bir kiloqramı 6-12 min dollar arası dəyişib. O səbəbdən artıq hissənin daxili bazara yönəldilməsi mümkün deyil. Belə olan halda daxili bazarda da qiymətin aşağı düşməsini gözləmək doğru olmaz. Fermerlər daha çox ixracda maraqlıdır. Dünya bazarında qiymət nə qədər azalsa da, 3-4 min dolların üzərində qalır. Bu səbəbdən daxili bazarımızda qiymətin aşağı düşməsi gözlənilmir”.



Akif Nəsirli

# “HARRİ POTTER”İN YAZILDIĞI MƏKANDAN REPORTAJ

## “Lello & Irmão” - “Livraria Lello” Portonun əsas mədəni məkanlarından biridir. Bura yüz ildən artıqdır qorunub saxlanılan, gənclik ruhu ilə dolu, azad düşüncəli bir kitab məkanıdır.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Dünyada ən çox təqibçisi olan Harri Potter haqqında sehrli hekayənin doğulduğu Portuqaliyanın Porto şəhərindəki heyrətamiz yer haqqında az adam bilir. “Lello & Irmão” - “Livraria Lello” şəhərin əsas mədəni yerlərindən biridir. Bu, yüz ildən artıqdır ki, qorunub saxlanılan, gənclik ruhu ilə dolu, azad düşüncəli bir kitab məkanıdır. Əsasən kitab mağazası olsa da, daha çox kitabxana kimi məşhurdur. Şayiələrə görə, məşhur ingilis yazıçısı Coan Ketlin Roulinqin “Harri Potter” yazmaq ilhamı Portoda, xüsusən də bu kitabxanada başlayıb. Tanınmış yazıçı 1990-cı illərin əvvəllərində ingilis dili müəllimi işləyərkən 10 il Portoda yaşayıb. Yazıçı Lellonun kitab mağazasının ikinci mərtəbəsində bir fincan qəhvə içməyi və burada kitablar arasında vaxt keçirməyi xoşlayırmış.

### PORTUQALİYANIN ƏN QƏDİM KİTAB MAĞAZASI

Portuqaliyanın ən qədim kitab mağazasına daxil olmaq üçün onlayn bilet almaq (8 avro) lazımdır. Ancaq bu, ziyarətçiyə uzun növbəni keçmək hüququ vermir. Sadəcə, məkana daha tez daxil olmaq üçün mağaza açılmamışdan - 9.00-9.30-dan əvvəl gəlmək məsləhət görülür. Bu vaxt turistlər çox olmur. Mağazaya daxil olmaq üçün biletin onlayn alınması şərtini mağazanın qarşısında öyrənirəm. Gözləmək üçün vaxtımın az olduğunu, uçuşa gecikəcəyimi izah edincə xanım bələdçi uzun növbənin arasından mağazaya daxil olmağıma şərait yaradır...

Kitab evinin qapılarından içəri girəndə tavana qədər taxta rəflər, ikinci mərtəbəyə aparan nəhəng pilləkən, zərif taxta divarlar, eləcə də oyma ağacı təqlid edən dekorativ elementlərlə bəzədilən vitraj diqqəti cəlb edir. Kitab evinin fasadı neoqotik üslubda hazırlanıb. Mağazada kitablar olan arabanın daşındığı relslər var.

Bura qeyri-adi interyerinə görə, bir çox səyahətçi və ekspertlər tərəfindən dünyanın ən mükəmməl kitab mağazalarından biri kimi tanınıb. Dəfələrlə müxtəlif nəşrlər - xüsusən, “The Guardian”, “Süddeutsche Zeitung” və “Lonely Planet” tərəfindən dünyanın ən gözəl kitab mağazalarının siyahısına daxil edilib. İnsanlar məkana baxmaq və bir neçə şəkil çəkmək üçün saatlarla ən uzun növbədə dayanmağa hazırdırlar.

### XOSE LELLONUN XƏYALI

Mağazaya gələnlər ilk növbədə onun tarixi haqqında öyrənməyə çalışırlar. Kitab mağazasının tarixi 19-cu əsrin sonlarından başlayır. O vaxt Portoda yaşayan, oxumağa və musiqiyə sevgisi olan Xose Lello ədəbi qəhrəmanların enişli-yoxuşlu həyatına qərq olaraq onlarla empatiya qurmağı və kitab satmağı xəyal edirdi. Nəhayət, onun arzusu gerçəkləşir. 1881-ci ildə qardaşı Antonio ilə birlikdə Almada küçəsində ilk kitab mağazasını açır. Daha sonra o, qardaşı ilə Karmelitas küçəsində başqa mağaza istifadəyə verir. Mühəndis Francisco Xavier Esteves tərəfindən layihələndirilən bina Xosenin romantik xəyallarına uyğun gəlir. “Lello və qardaşı” yazısının üstündə elm və incəsənəti təcəssüm etdirən iki qadın silueti var.

Lello qardaşlarının nəşriyyatı zamanla Portuqaliyanın ən böyük nəşriyyatına çevrilir. Anbarlarında 20-ci əsrin əvvəllərində portuqal müəlliflərinin 3 000 adda əsəri var idi. Nəşriyyat və mağaza xarici həmkarları ilə əlaqələr qurur və ən yaxşı portuqal yazıçılarının əsərlərini nəşr etdirir. Böyük salonda, sütunların altında Camilo Castelo Branco, Esa de Queiroz, Antero de Quental, Tomas Ribeiro, Teofilo Braga və Guerra Junqueironun büstləri də bu sevgini əks etdirir.

İkimərtəbəli rahat bina 1906-cı il yanvarın 13-də həm Portuqaliya, həm də Braziliya cəmiyyəti üçün mühüm sosial tədbirin bir hissəsi olaraq istifadəyə verilib. Mağazanın açılışı görkəmli siyasətçiləri, rəssamları və şəhərin elitasını bir araya gətirib və onlar məkanın ideoloji ilhamçısı Xose Lellonun xəyalının gerçəkləşməsini alqışlayıblar. Məşhur portuqal yazıçısı Guerra Junqueiro da açılışda iştirak edib. İndi kitab evində yazıçının guşəsinin olması da təsadüfi deyil.

1981-ci ildə Portuqaliyanın Mədəniyyət Nazirliyinə binanın mədəniyyət abidələri siyahısına daxil edilməsi təklif olunub. Bu proses yalnız 20 sentyabr 2013-cü ildə, “Livraria Lello” ictimai əhəmiyyətli abidə kimi tanındıqda tamamlanıb.



### “Harri Potter”in yazıldığı mağaza

Lellonun mağazası təkcə öz fasad memarlığı və daxili dekorasiyası ilə məşhurlaşmayıb, “Harri Potter” kitab seriyasının müəllifi Coan Roulinq ona dünya şöhrəti gətirib. Deyilənlərə görə, müəllif Lellonun gözəlliyinə o qədər heyran olub ki, onun mükəmməlliyini sehrbazlar haqqında romanının səhifələrinə köçürüb. Lellonun kitab mağazasının pilləkənləri ilə Hoqvartsda - Britaniyanın sehrbazlıq və cadugərlik məktəbində təsvir olunan pilləkən arasında həqiqətən də böyük oxşarlıqlar var.

Hoqvarts üçün geyimlərin təsadüfi olmadığı da buna misaldır. Müəllif Portuqaliyadakı tələbələrin qara kostyum və paltodan ibarət geyimindən ilhamlanıb. Kitabxana Porto Universitetinin binası yaxınlığında - Qomes Teyşeyra meydanında yerləşdiyi üçün tələbələrin buraya baş çəkmək ehtimalı yüksək olub.



### QEYRİ-ADİ PİLLƏKƏNLƏRİN CƏLBEDİCİLİYİ

Mağazada seçim çoxdur. Əlbəttə ki, “Harri Potter” romanının cildlərini buradan ingilis dilində almaq olar, lakin kitabların çoxu portuqal dilindədir.

Adi kitablarla yanaşı, Lelloda siz “Balaca şahzadə” və ya “Alisa möcüzələr ölkəsində” kimi kitabların çox nadir nüsxələrini də görə bilərsiniz. Heç bir şey almasanız, çıxdığınız zaman Lello haqqında broşür və ya suvenir əldə etmək olur.

10 il əvvəl Lelloda fotoşəkil çəkmək qadağan idi. İndi isə “Lello və qardaşı” çoxdan bir kitab mağazasından “Harri Potter”in mağazasına və ya kitabxanasına çevrilib. Sosial platformalar onun qeyri-adi pilləkənlərinin fotoşəkilləri ilə doludur.

Lello qardaşlarının latın dilində yazılmış və “Əməkdə şərəf” mənasını verən şüarı isə bir əsr keçsə də, aktuallığını itirməyən inanc kimi insanları mağazaya cəlb etməkdədir...

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
14 DEKABR ŞƏNBƏ 2024
www.kaspi.az



Bu görüş hamı üçün böyük sevinc və coşqu idi. Ulduz futbolçunun görüşünə gələnlər arasında hətta Türkiyədən və ölkəmizin regionlarından olan azarkeşlər də vardı.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

# MESSİ və DOSTLARINDAN QALAN XATİRƏ

"Leonel Messi və komanda yoldaşları Bakıya gəlir..." Bu xəbər təkcə idmansevərlər üçün deyil, ulduz futbolçunun adını eşidən hər kəs üçün sakit havada ildırım çaxması kimi səsləndi. Argentina millisinin və ABŞ-nin "İnter Mayamı" komandasının əfsanəvi futbolçusunun milyonlarla fanatı günləri sayaraq o anı gözlədi..

Bakı Kristal Zalında (Christall Holl) əfsanəvi futbolçu və komandası ilə - Luis Suarez, Serxio Buskets və Xordi Alba ilə keçiriləcək görüşə bütün biletlər xeyli qabaqdan satıldı...

"Messini sevməyən futbolu sevmir" fikrini isə dekabrın 11-də canlı əfsanə və komandası ilə keçirilən görüşdəki izdiham bir daha təsdiqlədi. Bəli, Messi təkcə futbolçu deyil, bir epoxanın simvoludur. Onun dövlətlərin əhalisinə bərabər pərəstişkarlar ordusu var. Bir sıra ekspertlər və futbolçular onu "bütün zamanların ən yaxşı oyunçusu" adlandırıblar. Dünya çempionu, səkkiz dəfə "Qızıl top" mükafatının qalibidir. "Time" jurnalına görə, dəfələrlə planetin 100 ən nüfuzlu adamı siyahısına daxil edilib.

**XOŞ TƏƏSSÜRATLARLA...**

Dekabrın 11-də Azərbaycana gələn futbol əfsanəsi və komandası üçün tərtib edilən proqram da kifayət qədər sıx idi.

Leonel Messi və dostları Luis Suares, Serxio Buskets, Xordi Alba öncə Bakıdakı Fəxri Xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdilər. Futbolçular Ümummilli Liderin xatirəsini anıb, məzarı önünə "Messi və onun komandası" adından əklil qoydular.

Futbolçuların növbəti dayanacağı Binə Atçılıq Mərkəzində Qarabağ atları ilə tanışlıq oldu. Onlara Qarabağ atlarının özünəməxsusluğu nümayiş etdirildi. Bu, qonaqlarda xoş təəssürat yaratdı.

Dünya futbolunun əfsanəsi və komanda yoldaşları Heydər Əliyev Mərkəzini də ziyarət ediblər. Mərkəzin direktoru Anar Ələkbərova görüşən qonaqlar burada təqdim olunan sərgiləri də izləyiblər.

Qarşıda isə futbolçuları günün ən böyük tədbirində - Bakı Kristal Zalında fanatlarının toplaşdığı izdiham gözləyirdi...

## MİNLƏRLƏ İNSANIN SEVGİSİ

Messi və dostlarının Azərbaycandakı pərəstişkarları ölkənin ən böyük konsert salonuna toplaşmışdılar. Bu görüş hamı üçün böyük sevinc və coşqu idi. Kütlə arasında futbolçunu görmək üçün Türkiyədən və ölkəmizin regionlarından gələn azarkeşlər də vardı. Minlərlə fanatın qatıldığı tədbirə Bakının uşaq evlərinin sakinləri, sağlamlıq imkanları məhdud uşaqlar və şəhid övladları da dəvətli idi. Zal futbolçunun 10 nömrəli maykasını, əvvəllər oynadığı "Barselona" klubunun formasını geyən uşaq və yeniyetmələrlə dolu idi. Qonaqlar əllərdə şəkillər, maykalar və ürəklərdə böyük sevgi ilə qarşılanırdı. Böyük futbola və onun ulduzlarına sonsuz sevginin bütün dərinliyini bu nəhəng salonda müşahidə etmək mümkün idi... Bu sevgi üçünsə dünyanın hər bir tərəfinə getməyə dəyər.

Təbii ki, həm bir futbol azarkeşi, həm də Messinin ta "Barselona"dan fanatı kimi mən də izdihama qarışmışdım...

## "Həssas qruplarla görüş üçün buradadırlar"

Əvvəlcə səhnədə "Natiq" ritm qrupunun ifası səsləndi. Daha sonra məşhur bəstəkar və müğənni Willy William və "Morandi" qrupu mahnı və performansla zalı ələ aldılar.

Leonel Messinin futbol karyerasına həsr olunan "Argentina futbolunun xilaskarı" sənədli filmi isə zaldakıları futbolçunun uşaqlığından bu günə qədər davam edən uğurları ilə tanış etdi.

Filmin təqdimatından sonra ən həyəcanlı an yaxınlaşdı: Leonel Messi və komanda yoldaşları - Xordi Alba, Serxio Busqests və Luis Suarez səhnədə göründülər.

"Bu insanlar təkcə dünyaşöhrətli futbolçular deyil, onlar həmçinin gözəl insanlardır, xeyriyyəçilərdir. Onların adına olan fondlar dünyada təhsilə, səhiyyəyə, idmanın inkişafına dəstək olur. Messi də bu gün o həssas qruplarla, şəhidlərimizin övladları ilə görüşmək üçün buradadır", - deyə tədbirin aparıcısı Murad Dadaşov söylədi. Elə minlərlə fanatın qatıldığı tədbirdə bilet satışından əldə olunan vəsaitin də ölkəmizdə xeyriyyə məqsədinə yönəldilməsi bu amala xidmət edir.



**Fotolar:** Tapdiq Abdullayev - Global Photostock

Səhnəyə dəvət olunan sağlamlıq imkanları məhdud uşaqlar və şəhidlərimizin övladları qaçaraq futbolçuları qucaqladılar. Aralarında göz yaşlarını saxlaya bilməyənlər də vardı. Əfsanəvi futbolçu onları qucaqladı, avtoqraf verdi, uşaqlarla xatirə fotosu çəkdirdi. "Hər kəsi salamlayıram. Bu cür isti münasibətə görə təşəkkür edirəm. Dəstəyə görə çox sağ olun", - deyə ürək sözlərini söylədi. Futbolçunun "Azərbaycanın mədəniyyəti və insanları ilə tanış oldum..." fikirlərini zaldan qopan izdiham və coşqu müşayiət elədi.

Görüşdə ölkəmizin uşaq futbol komandalarının təmsilçilərinə bir çox gəncin arzuladığı imkan da yaradıldı. Gənc futbolçularımız dünya ulduzlarına top ötürərək özlərini peşəkarlarla bir oyunun iştirakçıları kimi hiss etdilər. Sonda Messi və ulduz dostları tamaşaçılara tərəf imzaları olan futbol toplarını atdılar.